

# ŞƏRQ QAPISI

100 ilin qəzeti

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Sayı: 17 (24.399)

*4 may 2024-cü il, şənbə*

www.serqqapisi.gov.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*


# Azərbaycan addım-addım növbəti siyasi qələbəni – sülhü yaxınlaşdırır




"Ən böyük müdafiə hücumdur" tendensiyası idmanda, hərbdə, diplomatiyada, bir sözlə, həyatın bütün sahələrində özünü doğruldub. Otuz illik müdafiə xarakterli danışıqların nəticəsizliyindən sonra əks-hücumla başlatdığı 44 günlük Vətən müharibəsi, 24 saata yaxın antiterror tədbirləri ilə müzəffər Azərbaycan Ordusu əzəli torpaqlarımızın azadlığını, ölkənin suverenliyini təmin etməklə bu amilin həqiqiliyini bir daha təsdiqlədi. Prezident cənab İlham Əliyevin siyasi qətiyyəti, iradəsi ilə diplomatiya sahəsində daim hücumda yer alan Azərbaycan artıq addım-addım növbəti siyasi qələbəni – sülhü yaxınlaşdırır. Ölkə başçısı mayın 1-də Bakıda işə başlayan "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimindəki çıxışında müharibədən sonra regionda yaranmış vəziyyəti şərh edərkən də bu faktı diqqətə çəkdi. Sitat: ***"Həmin qətnamələri qəbul edənlər heç bir şey etmədilər ki, onlar icra olunsun. Odur ki, biz sülhə müharibə yolu ilə nail olmalı idik və 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində ərazilərimizin böyük hissəsini azad etdik. Ötən ilin sentyabr ayında isə biz öz ərazi bütövlüyümüzü, suverenliyimizi tam şəkildə bərpa etdik. İndi isə biz münaqişədən sonrakı vəziyyətdəyik. Münaqişədən sonrakı vəziyyətə gəldikdə bir daha deyirəm, Azərbaycan çox fəal çalışır, Azərbaycan məhz Ermənistanla sülh sazişi ilə bağlı danışıqlara başlamaq təşəbbüsünü irəli sürdü. Azərbaycan məhz o ölkədir ki baza prinsiplərini, hətta sülh sazişinin layihəsini hazırladı".***

Xatırladaq ki, Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO-nun, BMT-nin Sivilizasiyalar Alyansının, Dünya Turizm Təşkilatı və ICESCO-nun tərəfdaşlığı ilə keçirilən 100-dən çox ölkəni təmsil edən 700 mötəbər qonağın iştirak etdiyi forum adından da göründüyü kimi, sülh və qlobal təhlükəsizlik məsələlərinin müzakirəsinə həsr olunub. Üç gün davam edəcək forum çərçivəsində 4 plenar sessiyanın və 12 panel müzakirənin keçirilməsi nəzərdə tutulur. Müzakirə olunacaq mövzular təhsil, gənclər, iqlim dəyişikliyi, süni intellekt, mədəni irsin mühafizəsi, qanunsuz miqrasiya və digər sahələri əhatə edir...

Açılış mərasimində iştirak edən ölkəmizin başçısı dərinməzmunlu nitqində bölgənin sülh və təhlükəsizliyinə dair bir sıra məqamlara aydınlıq gətirdi, regionda qarışıqlıq yaratmaq istəyən qüvvələrə növbəti tutarlı siyasi mesajlar verdi. Sülhün əsas açarı sayılan sərhədlərin delimitasiyası, demarkasiya işlərinə toxunan Prezident bu prosesin artıq başladığını diqqətə çatdırdı. Heç kimə sirr deyildir ki, 30 illik sülh danışıqları sırf keçmiş münaqişənin dondurulmasına yönəldilmişdi və bu prosesdə, xüsusilə Fransanın canfəşanlığı nəzərə çarpırdı. Lakin 44 günlük Vətən müharibəsində Azərbaycan təkcə Ermənistandakı revanşist, vandalizmə meyilli qüvvələrə deyil, bu dar düşüncəlilərə dəstək göstərənlərə də layiqli hərbi-diplomatik dərs keçdi. Müharibədən dərhal sonra yenidən tərəfləri köhnə, mənasız danışıqlar masasına çəkməyə çalışanların məkrli planları Qalib Lider tərəfindən fiaskoya uğradıldı. Ölkəmiz bir neçə il ərzində bütün cəbhələrdə inamla, qətiyyətlə savaşdı və qalibiyyətin zirvəsini yaşadı. Öz hərbi-siyasi gücü ilə ərazi bütövlüyünü, suverenliyini təmin etməklə yanaşı, ötən günlərdə Rusiya sülhməramlılarının Qarabağdan çıxarılması, Qazaxın 4 kəndinin geri qaytarılması ilə artıq vasitəçilik missiyasına da birdəfəlik son qoymuş oldu. Ölkə başçısı forumda bu məsələyə də diqqətləri yönəldərək qeyd etdi ki, bizə vasitəçi lazım deyil. Xüsusən də o insanlar ki məhz öz məqsədlərini güdürlər və yardım etmək istəmirlər. Onlar bizim bölgəyə öz fərdi, siyasi və iqtisadi maraqları naminə müdaxilə etmək istəyirlər. Onlar həmin alova yenidən odun atmaq istəyirlər. Biz Cənubi Qafqazda buna icazə verməyəcəyik, imkan verməyəcəyik....

Tanınmış Livan yazıçı və tənqidçisi Mixail Nüaymə deyirdi ki, o xalqlar tarixdə daha düzgün mövqe tuta bilir ki, onlar başqalarının tarixindən də dərs almağı bacarırlar. Bu gün bəzi Qərb ölkələri, o cümlədən də Fransanın yanlış mövqe seçiminin də məhz bu amildən irəli gəldiyinə heç bir şübhə yeri yoxdur. Demokratiya, insan azadlıqları və sülh prosesində özünü dırnaqarası nümunə göstərməyə çalışan, "tarixi işğalçılıq" tamaşasının baş aktyoru nə qədər əl-dən-ayaqdan getsə də, Azərbaycanı bu yalançı səhnələrin sehrinə sala bilməyəcək. Ən əsası ona görə ki, Azərbaycan artıq 90-cı illərin əvvəlindəki Azərbaycan deyil, ölkəni idarə edən hərtərəfli siyasi biliyə, praqmatik düşüncəyə, sarsılmaz qətiyyətə malik Liderdir. Ölkə həm siyasi gücü, həm də iqtisadi qüdrəti ilə onunla hesablaşmağa vadar edir, sözünü keçirməyi yaxşı bacarır. Və bu bacarıq sayəsində təkcə müharibədə deyil, bütün istiqamətlərdə qalibiyyət qazanıb, Qoşulmama Hərəkatına bir neçə il sədrlik edib, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına üzv seçilib, Cənub Qaz Dəhlizinin əsas tərəfdaşına çevrilib, neft, qaz, yaşıl enerji sahələrində beynəlxalq layihələrə imza atıb. Ən nəhayət, bu il dünyanın çox böyük və mühüm dövlətlərarası tədbirlərindən COP29-a ev sahibliyi edir. Bütün bunların fonunda son günlər baş verən hadisələr göstərir ki, artıq Ermənistan da Azərbaycanla hesablaşmaqdan başqa alternativ yol tapa bilmir və Fransanın cəhdlərinin mənasız olduğunu yavaş-yavaş dərk edir...

Ölkə başçısının forumda da qeyd etdiyi kimi, otuzillik toqquşmadan sonra Ermənistan da aydın şəkildə anlayır ki, biz Cənubi Qafqazda sülh istəyirik və sülh bu bölgədə yalnız Azərbaycanla Ermənistan arasında normallaşma vasitəsilə həll oluna bilər. Bəli, ümidvarıq ki, Ermənistan artıq yalançı havadarlarının oyununa getməyəcək, keçmişdəki səhvlərdən dərs çıxararaq sülhdən başqa yolunun olmadığını anlayacaq. Azərbaycanı yenidən anlatmağa vadar etməyəcək...

**Nail ƏSGƏROV**

## Prezident həftəsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Çin Xalq Respublikasının Xarici ölkələrlə dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Yan Vanmini qəbul edib.

***

Prezident İlham Əliyev mayın 1-də Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi dövlətlərin müsəlman dini rəhbərlərindən ibarət nümayəndə heyətini qəbul edib.

***

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyası Qaraçay-Çərkəz Respublikasının müftisi İsmayıl Berdiyevin başçılıq etdiyi Rusiya Federasiyası Şimali Qafqaz regionunun müftilərindən ibarət nümayəndə heyətini və Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin (KAICIID) Baş katibi Zuhair Əlhartini qəbul edib.

***

Mayın 1-də Bakı Konqres Mərkəzində "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimi keçirilib. Prezident İlham Əliyev tədbirdə iştirak edib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də BMT Baş katibinin Sülhməramlı Əməliyyatlar Departamentində qanunun aliliyi və təhlükəsizlik təsisatları üzrə köməkçisi Aleksandr Zuyevi qəbul edib.

***

Prezident İlham Əliyev mayın 3-də Səudiyyə Ərəbistanı Krallığının energetika naziri Şahzadə Əbdüləziz bin Salman Əl Səudu qəbul edib.

## Ali Məclisin mətbuat xidmətinin məlumatı

Mayın 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yaz sessiyasının növbəti plenar iclası keçiriləcək.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasına və Ali Məclisin Daxili Nizamnaməsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti hər il Ali Məclisin yaz sessiyasında Nazirlər Kabinetinin əvvəlki il üzrə fəaliyyəti haqqında hesabat verir.

Sessiyanın plenar iclasında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatı müzakirə olunacaq, həmçinin Naxçıvan Muxtar Respublikasının Baş nazirinin Nazirlər Kabinetinin üzvlüyü ilə bağlı təqdimatına baxılacaq.

## R.V.Hüseynovun Naxçıvan Muxtar Respublikası Babək Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Rasim Vaqif oğlu Hüseynov Naxçıvan Muxtar Respublikası Babək Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 29 aprel 2024-cü il*

## O.M.Muradovun Naxçıvan Muxtar Respublikası Babək Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 141-ci maddəsini rəhbər tutaraq **qərara alıram:**

Ovni Mehbalı oğlu Muradov Naxçıvan Muxtar Respublikası Babək Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 29 aprel 2024-cü il*

## "Media haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

"Media haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 2, maddə 90 (Cild I) 59.2-ci maddəsində "və" sözü vergül işarəsi ilə əvəz edilsin və həmin maddəyə "Ali Məhkəməsi" sözlərindən sonra "və Naxçıvan Muxtar Respublikasının Ali Məclisi" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 19 aprel 2024-cü il*


**Naxçıvandan başlanan xilaskarlıq yolu** 2

**Naxçıvanda "İqlim dəyişikliyinin əməyin mühafizəsinə təsiri" mövzusunda konfrans keçirilib** 3

**"Şərq qapısı" ailəsinə böyük etimad** 6

**Demokratik tribunanın, azad sözün, müstəqil mətbuatın ziyasında...** 8

**Dünyaya açılan pəncərə** 9

**Zəngəzur xatirələri** 11



Ulu Öndərin arzuladığı Naxçıvan

# Naxçıvandan başlanan xilaskarlıq yolu

**Prezident İlham ƏLİYEV:**

> *“Naxçıvanın davamlı inkişafında Ümummilli Lider Heydər Əliyevin böyük xidməti vardır. Ulu Öndər hakimiyyətə gəldiyi vaxtlardan etibarən daim Naxçıvanı diqqətdə saxlamış, muxtar respublikanın gələcəyi ilə bağlı ən vacib qərarların təşəbbüskarı olmuşdur.”*

Xalqların böyüklüyü onların ərazilərinin böyüklüyü-kiçikliyi, yaxud əhali sayı ilə deyil, əsrlər boyu bəşər tarixinə verdikləri böyük şəxsiyyətləri və qüdrətli övladları ilə ölçülür. Böyük Azərbaycan xalqı bütün dövrlərdə olduğu kimi, iyirminci əsrdə də Heydər Əliyev kimi qüdrətli şəxsiyyət yetirmişdir. Müasir dövrdə müdrik dövlət xadimi Heydər Əliyevin adı müstəqil Azərbaycan dövlətinin rəmzi kimi səslənir. Müstəqil Azərbaycanın simasını müəyyənləşdirmiş bu qüdrətli şəxsiyyət xalqımızın tarixində və taleyində silinməz izlər qoymuşdur. Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri vardır. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur.

Ulu Öndər Heydər Əliyevin mənalı ömür yolunu göz önünə gətirsək, bu ömrün yalnız bir məqsədə xidmət etdiyinin şahidi olarıq: bu – Azərbaycandır! Ümummilli Liderin ***“Mən balaca bir evdə, zəhmətkeş ailədə, bir yaz günündə dünyaya göz açmışam. Anadan olanda, yəqin ki, beş-on, uzağı otuz-qırx nəfər sevinib. İndi, bəlkə, bir qədər qeyri-təvazökar səsləndi, amma deməliyəm ki, anam məni bütövlükdə Azərbaycanımız üçün dünyaya gətirib. Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm. Bundan sonrakı ömrümü də onun işıqlı sabahları uğrunda qurban verməyə hazıram”.*** Görkəmli dövlət xadiminin bu sözləri onun həyatının mənasını dəqiq ifadə edir. 1923-cü il mayın 10-da Azərbaycanın qədim Naxçıvan diyarında dünyaya göz açan Heydər Əliyev nəsillərə nümunə olan şərəfli ömür yolu keçmiş, daim xalqımızın rifahı, Azərbaycan naminə çalışmışdır. Ulu Öndərimiz Azərbaycanı həyatının mənası hesab edirdi. Bu səbəbdən O, Azərbaycanı müqəddəs yer kimi uca tutur, azərbaycanlı olmağı ilə fəxr edir və deyirdi: ***“Azərbaycan mənim qibləgahımdır”.*** Yaxud: ***“Mən fəxr edirəm ki, mən azərbaycanlıyam”.*** Sonsuz iftixar və qürur hissi ilə səslənən bu fikirlər bir dahi ömrünün manifestidir.

1969-cu il iyulun 14-də hakimiyyətə gələn dahi şəxsiyyət Heydər Əliyev Azərbaycanı böyük bir imperiyanın tərkibində milli varlığını itirməkdən qorumalı, iqtisadiyyatı dirçəltməli, sosial ədalətsizliyi aradan qaldırmalı, bir sözlə, xalqı yaşatmalı idi. Bununla yanaşı, təhsil, mədəniyyət və sosial sahədə də öz həllini gözləyən ciddi problemlər yığılıb qalmışdı. Ulu Öndərimizin Azərbaycan naminə fəaliyyətinin bu mərhələsi qeyd olunan problemlərin qısa müddətdə aradan qaldırılmasına, dərin köklərə və qədim mədəniyyətə malik olan xalqın tarixi yaddaşının, torpağa sahiblik hissinin bərpasına, bununla birlikdə Azərbaycanın özünə qayıdışına hesablanmışdı. Ümummilli Lider Heydər Əliyev tərəfindən elan olunmuş siyasi-iqtisadi müstəqillik kursu, inkişafın milli intibaha yönəldilmiş modeli Azərbaycana yeni həyat bəxş etdi. Azərbaycan ittifaq iqtisadiyyatının xammal və aqrar əlavəsindən müxtəlif sahələrdə hərtərəfli inkişafa qovuşan nəhəng infrastruktur ölkəsinə çevrildi. Bu dövrdə Azərbaycanın gələcək müstəqilliyi üçün atılan addımlar, həyata keçirilən fəaliyyət Heydər Əliyev quruculuq xəttinin siyasi əsasını təşkil edirdi. Ümummilli Lider o illəri xatırlayarkən deyirdi: ***“1970-ci illərdə görülən işlər, yaradılan bu böyük iqtisadiyyat, sənaye potensialı və neft sənayesi sahəsində görülən işlər, yaranmış potensial Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əsasıdır. Bu gün bəyan etmək istəyirəm ki, o illərdə bu işləri görərkən mən məhz Azərbaycanın gələcəyini, bugünkü müstəqilliyini düşünürdüm. O işləri görərkən mən əmin idim ki, onlar Azərbaycanın sərbəst, müstəqil yaşaması üçün əsas yaradır”.***

Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan naminə fəaliyyətinin 1990-cı ildən sonrakı mərhələsi şərəfli xilaskarlıq və quruculuq missiyası ilə zəngindir. Bu missiyanın öz başlanğıcını götürdüyü yer isə Azərbaycanın Naxçıvan Muxtar Respublikası idi. Bu gün ölkəmizin və muxtar respublikamızın sosial-iqtisadi, elmi və mədəni həyatında gedən proseslərin kökündə fəal yaradıcı gücə malik olan Heydər Əliyev milli dövlətçilik konsepsiyası, inkişafın Heydər Əliyev modeli dayanır. Xalqımızın müdrik rəhbəri bu dövlətçilik konsepsiyasını belə dəyərləndirirdi: ***“Mənim əsərlərim şeir deyil, roman deyil, elmi kitab deyil, musiqi əsəri deyildir. Mənim əsərim xalqım üçün qurduğum, yaratdığım binalar, saraylar, universitet və məktəb binalarıdır, yollardır, körpülərdir, su hövzələri, su kəmərləridir”.***

Naxçıvan bəşər tarixinə misilsiz töhfələr vermiş, dünyanın bəzəyi –“Nəqşi-cahan” adlandırılmışdır. Azərbaycanın bu qədim diyarı tarixin müxtəlif dövrlərində yadellilərin hücumlarına, qanlı döyüş meydanına çevrilsə də, ayaqda durmağı bacarmış, mövcudluğunu qoruyub saxlamışdır. Ötən əsrin sonlarında xalqımızın Ümummilli Lideri Heydər Əliyevin uzaqgörən siyasəti, misilsiz dühası sayəsində Naxçıvan Muxtar Respublikası bütün çətinliklərə sinə gərərək yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Ulu Öndərin quruculuq xəttinin davamı sonrakı dövrlərdə də muxtar respublikanın inkişafını təmin etmiş, Naxçıvan hərtərəfli inkişafa qovuşmuşdur. Ötən əsrin 90-cı illərində muxtar respublikanın ən böyük problemi onun təhlükəsizliyi ilə bağlı idi. Həmin dövrdə Ulu Öndər Heydər Əliyevin qətiyyəti, nüfuzu və naxçıvanlıların onun ətrafında sıx birləşməsi nəticəsində qədim diyarın ərazi bütövlüyü qorunub saxlanıldı. Sonrakı illərdə isə bu missiyanı güclü ordu həyata keçirməli idi. Muxtar respublikada təməli Ulu Öndərimiz tərəfindən qoyulan xalq-ordu birliyi ötən dövrdə daha da möhkəmləndirilmiş, ordu quruculuğu sahəsində görülən işlər yeni mərhələyə qədəm qoymuş, təhlükəsizliyin qarantı olan Əlahiddə Ümumqoşun Ordu yaradılmışdır. Ötən dövrdə bu ordu ən müasir silah və texnikalarla təmin olunmuş, şəxsi heyətin peşəkarlığı dəfələrlə artırılmışdır.

Naxçıvanda milli ruhun, milli şüurun daşıyıcısı olan Azərbaycançılıq ideologiyası həmişə sədaqətlə yaşadılıb. Bu sadiqlik naxçıvanlılara həyatın bütün sahələrində uğurlar gətirib. Çətinliklərə sinə gərərək qurub-yaradıblar. Bugünkü Naxçıvan Ulu Öndərin arzuladığı Naxçıvandır. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən 2023-cü il 30 dekabr tarixdə imzalanmış “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncam dövlətçiliyimizin taleyüklü məsələlərinin həllini tapdığı, blokada şəraitində yaşayan Naxçıvana böyük diqqət və qayğının daha bir ifadəsidir. Sərəncamda deyilir: *“Naxçıvanın davamlı inkişafında Ümummilli Lider Heydər Əliyevin böyük xidməti vardır. Ulu Öndər hakimiyyətə gəldiyi vaxtlardan etibarən daim Naxçıvanı diqqətdə saxlamış, muxtar respublikanın gələcəyi ilə bağlı ən vacib qərarların təşəbbüskarı olmuşdur”.*

Düşmən qarşısında alınmaz qalaya çevrilmiş müasir Naxçıvanın hərtərəfli inkişafı müstəqillik dövrünün qiymətli quruculuq və dövlətçilik salnaməsidir. Bu inkişafın, sabitliyin və yüksək rifahın bir səbəbi var. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Naxçıvanda hər bir sahədə uğurlu inkişaf gedir, hər bir sahəyə böyük diqqət göstərilir. Bu məni çox sevindirir. Çünki bu, Heydər Əliyev siyasətinin təntənəsidir”.***

Ulu Öndərimiz güclü, müstəqil Azərbaycan dövləti yaratmaqla yanaşı, onu özündən sonra inamla idarə edə biləcək lideri, rəhbəri də yetişdirmişdir. Prezident cənab İlham Əliyev Ulu Öndərin strategiyasını uğurla davam etdirir, bu strategiyanı yeni dövrün ruhuna uyğun olaraq zənginləşdirir. Ümummilli Liderimizin keçmiş sovetlər birliyinin geridə qalmış aqrar ölkəsindən ittifaq dövlətinin inkişaf etmiş respublikaları sırasına çıxartdığı Azərbaycan, bu gün regionun lider dövlətidir.

Azərbaycan artıq dünyada sayılıb-seçilən ölkələrdən biridir. Respublikamızda beynəlxalq toplantılar, konfranslar, Avropa səviyyəli musiqi, dünya səviyyəli idman tədbirləri keçirilir. Azərbaycan regionda ən qüdrətli və lider dövlət olmaqla yanaşı, iqtisadi və siyasi göstəricilərinə, ictimai-siyasi sabitliyinə görə inkişaf etmiş dünya dövlətləri ilə bir sırada durur. Bu əzəmətli tərəqqi yoluna nəzər salarkən Heydər Əliyevin həmişəyaşarlığı bir daha aydın olur. Xalqımız bütün varlığı ilə inanır ki, ölkəmizdə həyata keçirilən siyasi xətt – Heydər Əliyev yolu Azərbaycanı daha böyük zəfərlərə qovuşduracaqdır. İndi ölkəmiz dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi altında bu yolla inamla irəliləyir, regionda və beynəlxalq aləmdə böyük iqtisadi və siyasi uğurlara imza atır.

Bu gün fəxrlə deyirik ki, ölkəmizin, xalqımızın qazandığı bütün nailiyyətlər Ümummilli Liderimiz Heydər Əliyev siyasi xəttinin təntənəsidir. Cəmiyyətimizin inkişafı Ulu Öndərin ideyalarına söykənir. Heydər Əliyev yolu ilə, Heydər Əliyev ideyaları ilə Azərbaycan daim uğurlar qazanaraq böyük zirvələri fəth edir. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 1993-cü ilin möhtəşəm qayıdışından başlanan xilaskarlıq missiyası sabitlik, inkişaf, qanunçuluq və ədalət intizarında olan milyonlarla insanın çağırışının gerçəkləşməsi idi. ***“Mən Azərbaycanın müstəqilliyini Azərbaycan xalqı üçün böyük nailiyyət hesab etmişəm və bu müstəqilliyin əldə olunmasına xidmət etmişəm. Bundan sonra ömrümün qalan hissəsini də Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, inkişaf etməsinə sərf edəcəyəm”.*** Dahi şəxsiyyət Heydər Əliyev hakimiyyətə bu fikirlərlə qayıtmışdı və ömrünün sonunadək də buna sadiq qaldı.

Dahi Öndər Heydər Əliyev yeni Azərbaycanın bugünkü simasını və gələcək inkişaf perspektivlərini müəyyənləşdirib. Onun Azərbaycan naminə gördüyü işlər bu gün ölkəmizin milli sərhədlərini aşaraq, bütövlükdə, regionun və dünya sivilizasiyasının da tərəqqisinə xidmət edir. Xalqımızın böyük oğlu dünyanın ən nüfuzlu mükafatlarına, fəxri ad və titullarına layiq görülüb, lakin onun öz sağlığında layiq görüldüyü ən yüksək mükafat isə Azərbaycan xalqının Ümummilli Lideri adını qazanmasıdır. Bu da onu deməyə əsas verir ki, Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bu siyasət yaşayacaq, özü ilə birlikdə Azərbaycan xalqını da yaşadacaqdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***“Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri vardır. Hazırda bu siyasət davam etdirilir. Bu gün Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayacaqdır!”***

**Qızıltac ŞAHBAZOVA**
***Naxçıvan Müəllimlər İnstitutunun dosenti***
***Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi***

*Məqalə “Şərq qapısı” qəzetinin elan etdiyi “Naxçıvan 100 ildə” yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür*

# Naxçıvanda “İqlim dəyişikliyinin əməyin mühafizəsinə təsiri” mövzusunda konfrans keçirilib

***Konfrans 28 aprel – Ümumdünya Əməyin Mühafizəsi Günü və Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunub***



Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidməti və Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərində “İqlim dəyişikliyinin əməyin mühafizəsinə təsiri” mövzusunda konfrans keçirilib. Konfrans 28 aprel – Ümumdünya Əməyin Mühafizəsi Günü və Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Naxçıvan Muxtar Respublikasının 100 illik muxtariyyət tarixindən bəhs edib. O, muxtar respublikanın inkişafında Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətlərini diqqətə çatdırıb. Fuad Nəcəfli Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində Azərbaycanın dinamik və hərtərəfli tərəqqisini, o cümlədən Naxçıvan Naxçıvan Muxtar Respublikasında davamlı inkişaf proseslərini qeyd edib. O, iqlim dəyişikliyinin fəsadlarını, iqlim dəyişmələri fonunda əməyin mühafizəsinin daha da aktuallaşdığını, bu baxımdan Naxçıvan şəhərində keçirilən bu konfransın önəmini diqqətə çatdırıb.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Azərbaycan üçün 2024-cü ilin ən mühüm hadisəsi olaraq bu il ölkəmizin COP29-a ev sahibliyi edəcəyini bildirib. Bu missiyaya uyğun olaraq Prezident İlham Əliyevin Sərəncamı ilə 2024-cü ilin Azərbaycanda “Yaşıl dünya naminə həmrəylik ili” elan edildiyini diqqətə çatdırıb. Nazir iqlim dəyişikliyinin əməyin mühafizəsinə müxtəlif yollarla təsir etməsinin işçilərin sağlamlığı və təhlükəsizliyinin təmin olunmasını daha da aktuallaşdırdığını, hazırkı konfransın da cəmiyyətin, xüsusilə işəgötürənlərin bu mövzuya diqqətinin daha da artırılmasına xidmət etdiyini bildirib. O, Beynəlxalq Əmək Təşkilatının (BƏT) Ümumdünya Əməyin Mühafizəsi Günü



ilə əlaqədar 2024-cü il üçün müəyyən etdiyi devizin də “İqlim dəyişikliyinin əməyin mühafizəsinə təsiri” olduğunu qeyd edib.

Sahil Babayev ölkəmizin BƏT-in 60-a yaxın Konvensiyasını, o cümlədən əməyin mühafizəsi ilə bağlı sənədlərini ratifikasiya etdiyini, sosial sahədə aparılan islahatları, rəqəmsallaşdırma proqramının uğurlarını diqqətə çatdırıb. Əməyin mühafizəsində işəgötürənlərə dəstək məqsədi daşıyan Əməyin Mühafizəsi Mərkəzinin yaradıldığını, əmək sahəsində standartlaşdırma üzrə Texniki Komitənin fəaliyyətini qeyd edib. Əməyin mühafizəsi ilə bağlı işçi və işəgötürənlər arasında aparılan maarifləndirmə işlərinin işğaldan azad edilmiş ərazilərimizi də əhatə etdiyini vurğulayıb.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, Milli Məclisin deputatı Musa Quliyev, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının vitse-prezidenti Vüqar Abbasov, Türkiyənin Əmək və Sosial Müdafiə Nazirliyinin Əməyin Mühafizəsi və Təhlükəsizliyi Baş İdarəsinin rəisi Muhammed Fatih Alodalı, İslam Əmək Təşkilatının Əmək Mərkəzinin Katibliyinin Baş direktoru Azər Bayramov, BƏT-in Azərbaycan üzrə koordinatoru Yaşar Həmzəyev çıxış edərək keçirilən konfransın əhəmiyyətini vurğulayıblar. Daha sonra BƏT-in Əmək Administrasiyasının Əmək Müfəttişliyi və Əməyin Mühafizəsi bölməsinin rəhbəri Yoakim Pintado Nunesin konfrans iştirakçılarına videomüraciəti olub. Tədbirdə əməyin mühafizəsi sahəsində müsbət təcrübəyə malik işəgötürənlər və əmək-sosial hüquqlar barədə ictimai maarifləndirməyə töhfə verən QHT-lər təltif ediliblər.

“İqlim dəyişikliyi fonunda əməyin mühafizəsi şəraitinin təmin edilməsində mövcud çağırışlar” və “Naxçıvan Naxçıvan Muxtar Respublikasında əməyin mühafizəsi



sahəsində perspektivlər” mövzularında panel müzakirələr aparılıb.

Konfransdan sonra “Yaşıl Dünya Naminə Həmrəylik İli”nə töhfə olaraq Naxçıvan şəhərində əlilliyi olan şəxslərin iştirakı ilə ağacəkmə aksiyası keçirilib. Aksiya ictimaiyyətin diqqətini ətraf mühitin sağlamlaşdırılmasına, yaşıllıqların bərpasına və artırılmasına yönəltmək, ətraf mühitin mühafizəsinə və iqlim dəyişikliyi ilə mübarizəyə töhfə vermək məqsədi daşıyır.

# Naxçıvanda Sahibkarlar Günü münasibətilə görüş keçirilib

Aprelin 30-da Naxçıvanda “Sahibkarlar Günü: Naxçıvan Muxtar Respublikasının ixrac perspektivləri” mövzusunda tədbir keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucalan abidəsini ziyarət edib, Ulu Öndərin xatirəsinə ehtiramlarını bildiriblər.

Naxçıvan şəhərindəki Biznes Mərkəzində davam etdirilən tədbirdə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli dövlət başçısının 2016-cı il 21 aprel tarixli Sərəncamına əsasən hər il aprelin 25-nin Azərbaycanda “Sahibkarlar Günü” kimi qeyd olunduğunu bildirib, əlamətdar gün münasibətilə muxtar respublika sahibkarlarını təbrik edib və fəaliyyətlərində uğurlar arzulayıb.

Səlahiyyətli nümayəndə bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə özəl sektorda sistemli islahatlar aparılır. Bunun nəticəsidir ki, ölkəmizdə sağlam iqtisadi inkişaf modeli formalaşıb, makroiqtisadi sabitliyə nail olunub, sosial rifah göstəriciləri yüksəlib. Belə ki, 2003-cü illə müqayisədə ümumi daxili məhsulumuz 7 milyard dollardan 72 milyard dollara, valyuta ehtiyatlarımız 1,6 milyard dollardan 69,5 milyard dollara, minimum əməkhaqqı 9 manatdan 345 manata, minimum pensiya 20 manatdan 280 manata çatdırılıb, yoxsulluq səviyyəsi 50 faizdən 5 faizə düşüb.



“Bu gün Azərbaycanda özəl sektorun inkişafı, istehsalın genişləndirilməsi və ixrac potensialının artırılması iqtisadiyyatın strateji prioritetlərindəndir”, – deyən Fuad Nəcəfli vurğulayıb ki, dövlət başçısının təsdiq etdiyi “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də “dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat”ın formalaşdırılması əsas hədəf kimi götürülüb. Hazırda ölkəmizdə inkluziv və özəl təşəbbüslərə əsaslanan iqtisadi artımın təmin edilməsi, cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu əlaqəsi, dövlət-özəl tərəfdaşlığının gücləndirilməsi, ixracatın diversifikasiyası, biznesə dost dövlət idarəetməsinin yaradılması və xarici bazarlara yerli məhsulların çıxışının artırılması, ticarət rejimlərinin daha da liberallaşdırılması təməl prinsiplər kimi müəyyənləşdirilib. Reallıq ondan ibarətdir ki, ölkəmizdə sahibkarlıq fəaliyyəti üçün yaradılan imkanlar sırasında institusional tədbirlər də xüsusi yer tutur. Ötən dövrdə məhkəmə-hüquq sistemində şəffaflıq artırılıb, haqsız rəqabətin qarşısı alınıb, dövlət vergi və gömrük siyasəti sahibkarlıq fəaliyyətinə uyğun stimullaşdırılıb.

Səlahiyyətli nümayəndə diqqətə çatdırıb ki, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda özəl sektorun inkişafı ilə bağlı mühüm fəaliyyət istiqamətləri müəyyənləşdirilib. Əlverişli biznes mühitinin yaradılması, hüquqi və fiziki



şəxslərə vergi, gömrük, sosial sığorta və digər sahələrdə güzəştlərin tətbiq edilməsi, yerli və xarici investisiyaların cəlb edilməsi ilə bağlı tədbirlərin görülməsi, bank və sığorta xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi, sahibkarlıq subyektlərinə güzəştli kreditlərin verilməsi, zəmanət və digər dəstək mexanizmlərinin tətbiqi, ən əsası isə azad iqtisadi zonaların yaradılması Dövlət Proqramında nəzərdə tutulan vəzifələrdir. Naxçıvan Muxtar Respublikasının bütün ərazisini əhatə edən Azad iqtisadi zonanın yaradılmasına hazırlıq məqsədilə aidiyyəti qurumların rəy və təklifləri əsasında xüsusi iqtisadi rejimin tətbiq edilməsi ilə bağlı konsepsiya və hüquqi sənədlər hazırlanıb və aidiyyəti üzrə təqdim edilib. Həmçinin Dövlət Proqramına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının bütün ərazisində gömrük rüsum güzəştini nəzərdə tutan xüsusi gömrük rejiminin yaradılması və ixraca logistik dəstək verilməsi sahəsində də işlər aparılıb.

Fuad Nəcəfli qeyd edib ki, sahibkarlığın inkişafında diqqətə alınacaq ilk məsələ ixrac mexanizminin düzgün qurulmasıdır. Bu işdə sahibkarların üzərinə düşən məsələ rəqabətqabiliyyətli məhsul istehsal etməkdirsə, dövlətin öhdəlikləri isə logistik dəstək, gömrük və vergi güzəştləri, təşviqat metodlarının müəyyən edilməsi və digər bu kimi tədbirlərdir.

“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın üçüncü prioritet istiqaməti də “İxracyönlü sənayenin yaradılması” ilə bağlıdır. Artıq bu istiqamətdə də tədbirlərin icrasına başlanılıb. Xüsusilə də sənaye parklarının yaradılması, Şərur Sənaye Məhəlləsinin fəaliyyətinin təmin edilməsi, ixrac coğrafiyasının şaxələndirilməsi, ixracyönümlü potensial sənaye sahələri üzrə layihələrin hazırlanması davam etdirilir. Dövlət Proqramı Naxçıvanda digər sahələr kimi, özəl sektorun inkişafı üçün də geniş imkanlar açacaqdır.

Səlahiyyətli nümayəndə bildirib ki, qarşıda bizi mühüm vəzifələr gözləyir. Dövlət özəl sektorun inkişafı ilə bağlı öhdəlikləri yerinə yetirir. Sahibkarlar da bu işə dəstək verməli, muxtar respublikada dövlət-özəl tərəfdaşlığına əsaslanan yeni inkişaf modeli müəyyənləşdirilməli, ixracyönümlü məhsul istehsalına nail olunmalıdır.

Səlahiyyətli nümayəndə Fuad Nəcəfli bu işdə hər bir sahibkara uğurlar arzulayıb, investisiya qoyuluşunda fəal iştiraka dəvət edib.

Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini, nazir vəzifəsini icra edən Abbas İsmayılov muxtar respublika iqtisadiyyatının dinamik inkişafında müsbət meyillərin getdikcə artdığını diqqətə çatdıraraq vurğulayıb ki, 2023-cü ildə ümumi məhsul istehsalı 1 milyard 550 milyon manatdan çox olub. 2024-cü ilin I rübü ərzində ümumi daxili məhsul istehsalı 318 milyon 794 min manat olub ki, bu, 2023-cü ilin eyni dövrü ilə müqayisədə 2,9 faiz çoxdur.

Nazir müavini qeyd edib ki, muxtar respublika iqtisadiyyatında şəffaflaşma məqsədilə 2024-cü ilin mart ayınadək yumşaq keçid tətbiq edilib, vergi nəzarəti tədbirlərinin minimuma endirilməsi kimi yumşaq gücə üstünlük verilib. Ötən il 2022-ci illə müqayisədə səyyar vergi yoxlamalarının sayı 9 dəfəyədək, operativ vergi nəzarəti tədbirlərinin sayı isə 4 dəfədən çox azaldılıb. Eyni zamanda ötən bir il ərzində Naxçıvan şəhərində, Şərur və Ordubad rayonlarında müasir standartlara cavab verən və vergi orqanının təqdim etdiyi elektron xidmətlər göstərən vergi ödəyicilərinə xidmət mərkəzləri istifadəyə verilib. 2023-cü ildə xidmət mərkəzləri tərəfindən göstərilən xidmətlərin sayı 2022-ci ilin eyni dövrü ilə müqayisədə 2,8 dəfə, 2024-cü ilin I rübü ərzində isə ötən ilin eyni dövrü ilə müqayisədə 2,7 dəfə artıb. 2023-cü ildə özəlləşdirmədən daxilolmalar 2,3 milyon manat təşkil edib ki,

*Ardı 4-cü səhifədə*

bu da öncəki ilin eyni dövrü ilə müqayisədə 2,5 dəfə, 2024-cü ilin I rübü ərzində ötən ilin eyni dövrü ilə müqayisədə daxilolmalar 12,3 dəfə, özəlləşdirilən əmlakların sayı isə 6 dəfə artıb.

Abbas İsmayılov vurğulayıb ki, sahibkarlığın sürətli inkişafında ən önəmli amillərdən biri maliyyə əlçatanlığıdır. 2023-cü ildə Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondu tərəfindən 40 investisiya layihəsinin maliyyələşdirilməsinə 6,2 milyon manat güzəştli şərtlərlə dövlət maliyyə dəstəyi göstərilib. Bunun 84,8 faizi sənaye məhsullarının istehsalına, 11,7 faizi kənd təsərrüfatına, 3,5 faizi isə xidmət sahələrinə yönəldilib. 2024-cü ilin yanvar-mart ayları ərzində ötən ilin eyni dövrü ilə müqayisədə maliyyələşdirilən layihələrin sayı 33,3 faiz, verilmiş güzəştli kreditlərin məbləği isə 2,5 dəfə artıb. Ötən il muxtar respublikanın bank strukturları və kredit təşkilatları tərəfindən real sektora 130,4 milyon manatdan çox kredit verilib ki, bu, 2022-ci ilin müvafiq göstəricisindən 2,7 dəfə çoxdur.

Dövlət dəstəyi ilə sahibkarların yerli və xarici ölkələrdə keçirilən biznes-forum, sərgi və konfranslarda iştirakının təmin edilməsi ixracın artmasına əlverişli şərait yaradıb, 2023-cü ildə Naxçıvanda istehsal olunan qida sənayesi, kənd təsərrüfatı, tikinti və mebel məhsulları 9 ölkəyə ixrac edilib. 2023-cü ildə verilmiş mənşə sertifikatlarının sayı 2022-ci illə müqayisədə 24,4 faiz, 2024-cü ilin ilk rübü ərzində bu göstərici isə ötən ilin eyni dövrü ilə müqayisədə 36 faiz artıb. Bu işlərin davamı olaraq Türkiyə Respublikası ilə ticarət əməliyyatlarında yarana biləcək çətinliklərin operativ həll edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Qida Təhlükəsizliyi Agentliyinin, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Naxçıvan Baş Gömrük İdarəsinin məsul nümayəndələrindən ibarət işçi komissiyası yaradılıb. Abbas İsmayılov Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı ticarət nümayəndəsi Tamerlan Tağıyevin təbriklərini çatdırıb.

İqtisadiyyat nazirinin müavini Abbas İsmayılov Sahibkarlar Günü münasibətilə təbriklərini çatdırıb, ölkəmizin, o cümlədən muxtar respublikamızın inkişafında göstərdiyi xidmətlərə görə bütün sahibkarlara təşəkkür edib, fəaliyyətlərində uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası sahibkarlarını təmsil edən Naxçıvan Sahibkarlar Konfederasiyasının sədri Vüqar Abbasov da tədbirdə çıxış edərək muxtar respublikada sahibkarlığın inkişafı ilə bağlı görülən işlərdən danışıb. Bildirib ki, dövlətimiz sahibkarlıq mühitinin inkişafı məqsədilə ardıcıl tədbirlər görür, onlara davamlı dəstək mexanizmi tətbiq olunur. Bu imkanlardan istifadə edən sahibkarlar muxtar respublikada əldə olunan iqtisadi inkişafa mühüm töhfələr verirlər.

Tədbirdə "Ləzzət Qida Sənaye" MMC-nin direktoru Teymur Rzayev dövlətin sahibkarlığın inkişafına göstərdiyi qayğını yüksək qiymətləndirib.

Sonra Sahibkarlar Gününə həsr olunmuş film nümayiş olunub.

Tədbirdə qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 26 aprel tarixli Sərəncamı ilə sahibkarlıq sahəsində səmərəli fəaliyyətlərinə görə fərqlənən Səxavət Hümbətov, Namiq Novruzov, Seyfəddin Rəhimov və Teymur Rzayev "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunublar. Təltif olunan sahibkarlara nişanları təqdim olunub.

Tədbirdə sahibkarların təklifləri dinlənilib, onları maraqlandıran suallar cavablandırılıb, problemləri qeydə alınıb.

Sonda Türkiyə Respublikası tərəfindən tətbiq olunan sərhədyanı ticarət rejimi, Türkiyə Respublikası tərəfindən muxtar respublikaya tətbiq olunan güzəştli ticarət rejimi, muxtar respublikada istehsal olunan məhsulların ixrac prosedurları və Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin yeni istifadəyə verilən saytının təqdimatları olub.

## Naxçıvanda doğum günü aprel ayında olan şəhidlərin xatirəsi anılıb




Aprelin 30-da "Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin təşkilatçılığı ilə aprel ayında doğum günü olan şəhidlərin anım tədbiri keçirilib.

Dövlət və hökumət rəsmiləri, şəhid ailələri, qazilər, ictimaiyyət nümayəndələrinin və tələbə-gənclərin iştirak etdiyi tədbirdə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himnimiz səsləndirilib.

Naxçıvan televiziyasının doğum günü aprel ayında olan şəhidlərlə bağlı hazırladığı videoçarx nümayiş etdirilib. Naxçıvan Dövlət Texniki Kollecinin tələbələri videoçarxda adları çəkilən 26 Birinci və İkinci Qarabağ müharibəsi şəhidinin portretləri ilə səhnəyə çıxıblar.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli tədbirdə çıxış edərək qeyd edib ki, Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə şanlı Ordumuz 2020-ci ildə düşməni məhv edərək Qarabağ zəfəri salnaməsini yazdı. Prezident İlham Əliyevin apardığı ardıcıl və dəqiq siyasət nəticəsində ötən il suverenliyimiz tam təmin olundu. Artıq Şuşada, Xankəndidə və işğaldan azad olunmuş digər ərazilərimizdə sürətli və geniş quruculuq işləri görülür, yeni binalar





inşa edilir, park və xiyabanlar salınır, erməni xislətinin qurbanı olmuş tarixi abidələrimiz bərpa olunur. Bir sözlə, Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır. Bütün bunları qəhrəman şəhidlərimizə və qazilərimizə borcluyuq.

Fuad Nəcəfli bildirib ki, ölkə başçısının rəhbərliyi ilə Azərbaycan dövlətinin şəhid ailələrinə diqqət və qayğısı Naxçıvan Muxtar Respublikasında da əsas sosial istiqamət kimi diqqətdə saxlanılır. Prezident İlham Əliyev bütün dövlət qurumları qarşısında bu həssas təbəqəyə aid olan insanların problemlərinin həllini bir nömrəli vəzifə kimi müəyyən edib. Xalqımız və dövlətimiz vətən oğullarının qəhrəmanlıqlarını heç vaxt unutmayacaq, şəhidlərin xatirəsini daim yad edəcək.

Tədbirdə şəhidlərimiz Ülvi Hüseynovun atası Möhsün Hüseynov, İslam Eyvazovun anası Aytən Eyvazova və Əlləddin Dünyamalıyevin qızı Sevda Cəfərova çıxış edərək şəhidlik məqamının ucalığından bəhs edib, əzizlərinin xatirəsinin uca tutulmasına görə minnətdarlıqlarını bildiriblər.

Sonda Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrı aktyorlarının hazırladığı "Yağış yağır Şuşaya" adlı bədii kompozisiya təqdim olunub.

## Səlahiyyətli nümayəndə Naxçıvanda voleybol idman sahəsi üzrə görülmüş işlərlə maraqlanıb



Muxtar respublikada voleybol idman növünün elmi əsaslarla kompleks inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli aprelin 30-da Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində Voleybol Federasiyası tərəfindən təşkil olunan məşqləri izləyib, yeni dönəmdə bu idman növünün inkişafı istiqamətində görülən işlərlə maraqlanıb.

Naxçıvan Voleybol Federasiyasının prezidenti Vüqar Əliyev məlumat verib ki, ötən ilin sentyabr ayında yenidən təşkil olunan federasiya tərəfindən Naxçıvan və Şərur şəhərlərində peşəkar voleybol məşqləri təşkil olunur. Naxçıvan şəhərində 45 oğlan, 65 qız, Şərurda isə 29 oğlan, 51 qız olmaqla, ümumilikdə, 200-ə yaxın yeniyetmə voleybolun sirlərini öyrənir. Məşqlərə, əsasən, 2009-2014-cü illər təvəllüdlü, boy, çəki və digər kriteriyaları voleybol idman növü ilə peşəkar şəkildə məşğul olmağa imkan verən uşaq və yeniyetmələr cəlb olunub. Federasiya tərəfindən 5 məşqçi-müəllim işlə təmin olunub. İdmançılarımızın vahid elektron bazası formalaşdırılıb. Eyni zamanda şəhər və rayonların Uşaq-Gənclər İdman məktəblərində yüzlərlə uşaq və yeniyetmələrə voleybol məşqləri keçirilir. Naxçıvan Voleybol Federasiyası Uşaq-Gənclər İdman məktəblərində voleybol məşqlərinin keçirilməsinə və zəruri idman ləvazimatları ilə təminat baxımından dəstək göstərir. Məşqlərin vahid proqram əsasında təşkili, məşqçi-müəllimlərin bilik və bacarıqlarının artırılması istiqamətində tədbirlər görülür.

Mart ayında 3 oğlan, 12 qız idmançı Azərbaycan Voleybol Federasiyası tərəfindən Bakı şəhərində milli komandaların tərkibinin müəyyənləşdirilməsi məqsədilə təşkil olunan təlim-məşq toplanışlarında iştirak edib. Onlarla perspektivli idmançımız müxtəlif yaş qrupları üzrə Azərbaycan seçmə komandalarının tərkibinə düşməyə namizədlər sırasında göstərilir. Azərbaycan Voleybol Federasiyasının rəhbərliyinin diqqət və dəstəyi ilə bu istiqamətdə tədbirlər bundan sonra da davam etdiriləcək. Voleybol Federasiyasının prezidenti kişilərdən ibarət "Naxçıvan" və qadınlardan ibarət "Möminə xatın" voleybol idman klublarının yaradılması və fəaliyyəti istiqamətində işlərin görüldüyünü vurğulayaraq qeyd edib ki, Naxçıvanın kişilərdən ibarət komandasının yeni mövsümdə yüksək liqa Azərbaycan çempionatında iştirakı nəzərdə tutulur. 6-10 may tarixlərdə isə Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi çərçivəsində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş yeniyetmə qızlar arasında "Heydər Əliyev kuboku" uğrunda voleybol üzrə muxtar respublika birinciliyi keçiriləcək.

Səlahiyyətli nümayəndə Fuad Nəcəfli məşqçi-müəllimlər və idmançılarla görüşüb, öz tövsiyələrini verib. Vurğulanıb ki, dövlətimiz tərəfindən Naxçıvanda voleybol idman növünün inkişafı və potensialın üzə çıxarılması istiqamətində tədbirlər bundan sonra da davam etdiriləcək.

Sonda xatirə şəkli çəkdirilib.

## Naxçıvanda "QHT-lərin IV İnkişaf və Mübadilə Proqramı" keçirilib





Aprelin 29-30-da Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı ilə Naxçıvan şəhərində "QHT-lərin IV İnkişaf və Mübadilə Proqramı" keçirilib.

Tədbirdən əvvəl iştirakçılar Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.




Sonra proqramda iştirak edəcək heyətlə görüş təşkil olunub.

Görüşdə Prezident Administrasiyasının Qeyri-Hökumət Təşkilatları ilə iş və kommunikasiya şöbəsinin Qeyri-Hökumət Təşkilatları ilə iş sektorunun müdiri Tural Əliyev, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin təmsilçisi Günay Malikqızı, Naxçıvan Muxtar Respublikası ədliyyə nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Hüseyn Səfərov və digər rəsmi şəxslər iştirak ediblər.

Sonra Qeyri-Hökumət Təşkilatlarının cəmiyyətdə layiqli yer tutması, onların müsbət təşəbbüslərinin dəstəklənməsi ilə bağlı Azərbaycan dövləti tərəfindən aparılan işlərin mahiyyəti, fəlsəfəsi izah olunub, iştirakçıların sualları cavablandırılıb, təklifləri dinlənilib. Həmçinin Qeyri-Hökumət Təşkilatı nümayəndələrinin bilik və bacarıqlarının önəminə toxunulub, onlara mübadilə proqramında uğurlar arzulanıb.

İki gün davam edən tədbirdə iştirakçılara "Layihələrin məqsəd və vəzifələrinin müəyyən edilməsi", "Layihə tərəfdaşlarının, hədəf qrupları və benefisiarlarının təyin edilməsi və onların gözləntiləri", "Layihənin məqsəd və vəzifələri" və digər mövzularda təlimlər keçirilib, praktiki qrup işləri təşkil olunub.

Təlimləri layihələrin tərtibi üzrə beynəlxalq dərəcəli ekspert aparıb və yekunda uğurlu nəticə göstərən Qeyri-Hökumət Təşkilatlarının nümayəndələrinə agentliyin sertifikatları təqdim olunub.

Xatırladaq ki, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi 2022-ci ildə Mingəçevirdə, 2023-cü ildə Naftalan və Bakı şəhərlərində "QHT-lərin İnkişaf və Mübadilə Proqramı"nı icra edib, proqramlarda indiyədək 300-dən çox QHT təmsilçisi iştirak edib.

Səbuhi HƏSƏNOV




# Naxçıvan "Türk Dövlətləri İqtisadi Forumu"nda təmsil olunub

Türk Dövlətləri Təşkilatının (TDT) rəsmi tərəfdaşlığı, Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyası (KOBSKA) və Azərbaycan Françayzinq Assosiasiyasının (AFA) birgə təşkilatçılığı ilə ilk dəfə ölkəmizdə "Türk Dövlətləri İqtisadi Forumu" keçirilib.

Forum ölkələr arasında mövcud bazar və investisiya imkanlarının öyrənilməsi, türk markalarının beynəlxalq mühitə inteqrasiyasının təşkili, şirkətlərarası kommersiya münasibətlərinin inkişaf etdirilməsi, xarici investor və şirkətlərin ölkəyə cəlb olunmasına dəstək, Türk dövlətləri arasında münasibətlərin gücləndirilməsi məqsədi daşıyır.

Forumda "Türkdilli ölkələr arasında iqtisadi əməkdaşlıq, qlobal iqtisadiyyata təsiri və töhfəsi", "Çin, yoxsa Hindistan yolu?", "Ələt Azad İqtisadi Zonasının əhəmiyyəti", "Türk qadını – qadın sahibkarlığının inkişafı", "Türkdilli ölkələrdə iqtisadi əməkdaşlıq – Brendləşmə, Françayzinq" başlıqlı panellər keçirilib. Hər bir panel müzakirəsində müxtəlif dövlət qurumlarından yüksəkvəzifəli şəxslər, investorlar, xarici ölkələrdən gəlmiş mütəxəssislər çıxış ediblər.

Milli Məclisin deputatı Nigar Arpadarainin moderatorluğu ilə keçirilən "Türkdilli ölkələr arasında iqtisadi əməkdaşlıq, qlobal iqtisadiyyata təsiri və töhfəsi" mövzusunda ilk panel müzakirəsində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli çıxış edib.

"Naxçıvan Muxtar Respublikasının sosial iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" barədə məlumat verən Samir Seyidəhmədli diqqətə çatdırıb ki, sözügedən proqram 11 prioritet istiqamətdən ibarətdir. Burada əlverişli biznes mühitinin, ixracyönümlü sənayenin yaradılması, sosial sahənin, insan kapitalının, ticarətin infrastruktur təminatının və turizmin inkişafı, institusional inkişaf, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, elektrik enerjisi istehsalı və ixracı, eləcə də ətraf mühitin mühafizəsi prioritetlər sırasındadır. Proqramda yer alan mühüm 3 əsas istiqamət muxtar respublikanın iqtisadi inkişafının qısa müddətdə dirçəlməsinə yönəlmiş çox vacib komponentləri özündə birləşdirir. Belə ki, iqtisadiyyatın əsas sahələrinə vergi güzəştlərini, sosial sığorta öndənişləri sahəsinə güzəştləri, gömrük rüsumlarına dair güzəştləri və logistik dəstəyi, aşağı faizli kreditlərin verilməsini özündə ehtiva edir.

Səlahiyyətli nümayəndənin müavini muxtar respublikanın potensialını diqqətə çatdıraraq vurğulayıb ki, qarşıda əsas 4 hədəf dayanır. Bu sahələr "yaşıl enerji", aqrar sahə, turizmin inkişafı və logistik nəqliyyat dəhlizinin yaradılmasıdır. Bildirib ki, 2023-cü ildə Naxçıvanı "yaşıl enerji" zonası elan edən Prezident cənab İlham Əliyev muxtar respublikaya səfəri zamanı qeyd edib ki, Naxçıvanın nefti, qazı olmasa da, günəşi var və bu potensialdan düzgün istifadə olunmalıdır. Beləliklə, Dövlət Proqramında da alternativ enerji istehsalı və ixracı ən əsas məsələlərdən biridir. Bununla bağlı çox ciddi işlər görülüb, 8 min hektar yer ayrılıb. Bunun 5 min hektarı günəş, 3 min hektarı isə külək enerjisinin istehsalı üçün nəzərdə tutulub. Bu məqsədlə memorandum imzalanıb və artıq istehsalın başlanması üçün addımlar atılmağa başlanılıb.



Samir Seyidəhmədli vurğulayb ki, muxtar respublikanın əlverişli təbiəti təbii məhsulların istehsalına və təşviqinə gətirib çıxarır. Sosial-iqtisadi inkişafa dair Dövlət Proqramında da "Orqanik Naxçıvan" brendi adı altında kənd təsərrüfatı məhsullarının ölkə və dünya bazarına çıxarılması üçün əməli addımlara başlanılıb. Bu istiqamətdə konsepsiya artıq hazırlanıb və həyata keçirilməsi üçün ayrıca bir qurum yaradılıb. Naxçıvanın turizm atlasının hazırlanması istiqamətində ciddi addımlar atıldığını önə çəkən Samir Seyidəhmədli qeyd edib ki, bu sahədə infrastrukturun yenidən qurulması, yeni turizm məhsullarının təqdim edilməsi ilə bağlı layihələr hazırlanıb. Bildirib ki, muxtar respublikanın coğrafi mövqeyi burada logistik tranzit dəhlizin geniş imkanlarını bir daha göstərir və Dövlət Proqramında da bununla bağlı xüsusi tədbirlərin icrası nəzərdə tutulub. Araz çayı üzərində yeni Türkiyə-Azərbaycan körpüsünün, geniş avtomobil yolunun salınması, dəmir yolunun layihələndirilməsi bu istiqamətdə əsas addımlardandır.

Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında ticarət fəaliyyəti ilə bağlı bir çox xüsusi məqamları qeyd edən səlahiyyətli nümayəndənin müavini qeyd edib ki, 2016 və 2021-ci illərdə Türkiyə Nazirlər Kabinetinin müvafiq qərarları sərhəd ticarətinin tənzimlənməsində mühüm rol oynayır. Bu da Naxçıvan və Türkiyənin yaxın vilayətləri arasında məhsul dövriyyəsinin rüsumsuz tətbiqinə geniş imkanlar yaradır. Görülmüş işlər artıq öz nəticələrini verir. 2023-cü ildə Naxçıvandan Türkiyəyə ixrac 51 faiz, muxtar respublikada yeni fəaliyyətə başlayan sahibkarlıq subyektlərinin sayı 2 dəfədən çox, vergi daxilolmaları isə hər hansı bir inzibati tədbir görülmədən 29 faiz artıb. Beləliklə, Dövlət Proqramının verdiyi imkanlar, gələcəkdə tranzit logistik dəhlizin yaradacağı fürsətlər Naxçıvanda mühüm logistik hab, ticarət mərkəzi imkanlarını artırır. Bütün bunlar investisiya qoyuluşu üçün yeni imkanlar yaradacaq. Samir Seyidəhmədli çıxışında qardaş ölkələrimizin iş adamlarını bu imkanlardan yararlanmağa dəvət edib.

Qeyd edək ki, 12 şirkət tərəfindən məhsul və xidmətlərin sərgiləndiyi forumda, ümumilikdə, 500-ə yaxın yerli və xarici qonaq, sahibkarlar, ziyarətçilər, media nümayəndələri və iş adamları iştirak edir. Forum hər il müxtəlif türk dövlətlərində davamlı olaraq keçiriləcək.

## Hökumətin hesabatının Ali Məclisin komitə iclaslarında müzakirəsi başa çatıb

Aprelin 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İqtisadi siyasət komitəsinin iclası keçirilib.

İclası açan İqtisadi siyasət komitəsinin sədri İsa İsayev gündəlikdə duran məsələni – Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatını diqqətə çatdırıb.



Gündəlik təsdiq olunduqdan sonra komitə sədri Naxçıvan Muxtar Respublikası Konstitusiyasına və Ali Məclisin Daxili Nizamnaməsinə əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin hər il Ali Məclisin yaz sessiyasında əvvəlki il üzrə fəaliyyəti haqqında hesabat verdiyini qeyd edib. Daxili Nizamnaməyə uyğun olaraq Nazirlər Kabinetinin hesabatı Ali Məclisin iclasında baxılmamışdan əvvəl Ali Məclisin digər komitələri ilə yanaşı, İqtisadi siyasət komitəsinə də rəy verilməsi üçün təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının Aqrar məsələlər və ekologiya şöbəsinin müdiri Mübariz Bayramov hesabat barədə məlumat verib.

Məsələ ətrafında aparılan müzakirələrdə komitənin sədri İsa İsayev, üzvləri Arif Qasımov, Sevda Quluyeva və Hüseyn Bağırsoylu Sədərək rayonunda içməli su və kanalizasiya xətlərinin çəkilməsi prosesinin yekunlaşdırılmaması, Azərbaycan-Türkiyə İnvestisiya Forumu çərçivəsində aid dövlət qurumlarının iştirakı ilə keçirilmiş görüşdə müzakirə olunan məsələlərin həlli istiqamətində görülən işlər, muxtar respublikada sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər, baramaçılığın və ipəkçiliyin inkişafı, yeni tut bağlarının salınması və ipək istehsalı müəssisəsinin yaradılması ilə bağlı sahibkarlıq subyektlərinə dövlət dəstəyinin göstərilməsi, eləcə də hesabatda məşğulluqla bağlı statistik göstəricilərin, Dövlət Baytarlıq Xidmətinin ləğvi ilə əlaqədar yekun məlumatların olmaması və digər mövzularda öz fikirlərini, irad, qeyd, təklif və suallarını səsləndiriblər.

Komitə sədri makroiqtisadi göstəricilərin əvvəlki illərlə müqayisəli təhlilinin, icrasına başlanılan layihələrin icra vəziyyətinin, muxtar respublika ilə bağlı müvafiq Dövlət Proqramının icrası istiqamətində görülmüş və görüləcək işlərin hesabatda əks olunmasının önəmini qeyd edib.

Ali Məclis Aparatının İqtisadi məsələlər şöbəsinin müdiri Nihad Möhbalıyev ilk dəfə olaraq Nazirlər Kabinetinin hesabatının Ali Məclisin komitələrində müzakirəsini yüksək qiymətləndirib, bunu qurumlar arasında idarəetmənin təkmilləşdirilməsinin nəticəsi kimi dəyərləndirib. Həmçinin hesabatda büdcə xərcləri ilə bağlı struktur bölgünün, sənaye sahəsinin ötən il üzrə müqayisəsinin verilmədiyini, dövlət əmlakının idarə edilməsi və özəlləşdirilməsi, daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı, ünvan reyestrinin, ümumiyyətlə, qeyd olunmadığını və nəzərə alınmasını diqqətə çatdırıb.

Nazirlər Kabineti Aparatının Aqrar məsələlər və ekologiya şöbəsinin müdiri Mübariz Bayramov, İqtisadiyyat şöbəsinin əməkdaşı İsmayıl Bağırov və Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Xəyalə Dadaşova səsləndirilən fikirlərə münasibət bildirib, suallara aydınlıq gətirib, təkliflərin nəzərə alınması üçün qeydiyyata aparılıb.

Müzakirələrin sonunda gündəlikdə duran məsələ ilə əlaqədar İqtisadi siyasət komitəsinin rəyi oxunduqdan sonra Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatı irad və təkliflər nəzərə alınmaqla Ali Məclisin müzakirəsinə tövsiyə olunub.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Gənclərinin Həmrəylik Forumu keçirilib



Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ilə əlaqədar Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında Naxçıvan Gənclərinin Həmrəylik Forumu keçirilib. Tədbirdə gənclər, könüllülər, kursantlar, Vətən müharibəsi iştirakçıları, təşkilatçı qurumların rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak edib.



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən "Şərq qapısı"na bildirilib ki, forum iştirakçıları əvvəlcə teatrın foyesində gənclərin uğur stendi, eləcə də rəsm sərgisi ilə tanış olublar. Tədbirdə Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himnimiz səsləndirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin humanitar və sosial məsələlər üzrə məsul şəxsi Tükəzban Quliyeva, Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri səlahiyyətlərinin müvəqqəti icraçısı, nazir müavini Məcid Seyidov, mədəniyyət naziri səlahiyyətlərinin müvəqqəti icraçısı, nazir müavini Həsən Seyidov çıxış edərək əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla icra olunan gənclər siyasətindən, bu sahədə əldə olunan uğurlardan bəhs ediblər.

Qeyd olunub ki, ölkəmizdə gənclərlə düzgün iş strategiyasının müəyyənləşdirilməsi nəticəsində Azərbaycan gənci bütün sahələrdə ardıcıl nailiyyətlər əldə edir, dövlətçilik ənənələrini daim uca tutur, çoxşaxəli dövlət islahatlarının həyata keçirilməsində yaxından iştirak edir. Gənclərimiz ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir, siyasi, iqtisadi, humantiar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Sevindiricidir ki, Naxçıvan gəncləri də ölkə gəncliyinin aktiv bir parçası kimi istər təhsil, mədəniyyət, idman, istərsə də digər sahələrdə önəmli nailiyyətlərə imza atır, Vətən, cəmiyyət qarşısında faydalı fəaliyyətlər icra edirlər. Forum Naxçıvan gənclərinin karyerası, şəxsi inkişafı, birgə fəaliyyəti və həmrəyliyinə töhfə kimi dəyərləndirilib.

Çıxış edənlər gənclərə xitabən tövsiyə xarakterli fikirlər səsləndirib, onlara daimi həmrəylik və uğurlu gələcək arzulayıblar. Aktiv könüllülük fəaliyyəti və uğurları ilə seçilən Turanə Niftəliyeva gənclərə göstərilən dövlət qayğısına görə minnətdarlıq edib, iştirakçısı olduğu forumun gənclər qarşısındakı müasir çağırışları, mənəvi gözləntiləri ilə birgə faydalı olacağına inamını ifadə edib.

Tədbirdə Naxçıvan gənclərinə həsr olunmuş videoçarx nümayiş olunub.

Sonra Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının və Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin rəqqaslarının təqdimatında konsert proqramı təqdim edilib.

# “Şərq qapısı” ailəsinə böyük etimad



## 103 yaşlı qoca çinarın – “Şərq qapısı”nın kölgəsində

### *Amalımız dövlətimizə və dövlətçiliyimizə sədaqətlə xidmət etməkdir*

Müdriklərdən biri deyib ki, keçmişdən yazılanlar xatirələr, gələcəkdən yazılanlar arzular, bu gündən yazılanlar isə reallıqdır. Ona görə də bu gündən, reallıqdan yazmaq istəyirəm. Artıq 10 ilə yaxındır ki, əməkdaşı olduğum “Şərq qapısı” qəzetinin rəsmi təsisçilik hüququnun Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə verilməsi xəbəri kollektivin hər bir üzvünün sevincinə səbəb oldu. Azərbaycan Respublikası Prezidentinin “Media haqqında” Qanuna dəyişikliyi təsdiq etməsi mənə 2002-ci ildə bu ünvana üz tutduğum günləri xatırlatdı.

2002-ci ildə kiçik, şəraitsiz bir yerdə yerləşirdi redaksiya. Böyük bir binanın birinci mərtəbəsi, dar dəhlizlər, yarıişıqlı otaqlarda jurnalistlər günün nəbzini tutmağa, oxucu marağına uyğun yazılar qələmə almağa, uzun illərdən bu günə kimi qəzetin yaşatdığı adət və ənənələri qoruyub saxlamağa çalışırdılar. Cəmi iki il kənar əməkdaşı olduğum “Şərq qapısı” aradan 13 il keçəndən sonra yenə məni özünə cəlb etdi. Kollektiv şəkildə əmək sərf etdiyimiz bu qəzet mənim üçün həm də ikinci ev oldu...

103 ildir ki, qəzetin yaradıcı kollektivi jurnalistikanın yüksək amalına həmişə sədaqətlə xidmət edib, 70 illik sovetlər dönəmində milliliyimizi, tariximizi yaşatmağa çalışıb, müstəqillik dövrünün ədəbi salnaməsinə yeni parlaq səhifələr yazıb, ağıl və təmkin, səbir və dəyanət yolları ilə addımlayan bu keşməkeşli yollarda heç bir qasırğa, boran, çovğundan qorxmayıb yolundan, amalından, məqsədindən dönməyən bu mətbu orqan öz səhifələrində tarix yazıb. Elə bir tarix ki o tarix xalqımızın dəyanətini, mərdliyini, illərin əsarətindən azadlığa gedən yolunu, dostunun, düşməninin kim olduğunu, zəfər dastanını sətirlərdə, məqalələrdə toplayıb. Naxçıvanın iki əsrə yaxın tarixini öz arxivində qoruya bilib. Vaxtilə dünyanın super güclərindən biri olan sovetlər birliyinin rəhbərliyinin təəccübünə səbəb olan dövlət sənədi də bu qəzetdə dərc edilib. Həmin vaxt Naxçıvan 70 il idi ki, 15 respublikanı özündə birləşdirən, onlara hökm edən bir quruluşa etirazını bildirib öz müstəqilliyini elan etdi. Kiçik bir diyar, bəlkə də, o vaxta kimi bir çox dövlətin tanımadığı Naxçıvan SSRİ kimi nəhəng bir dövlətin tərkibindən çıxıb özünü müstəqil elan etdi. Və həmin gecə 70 ildir ki, nəşr olunan qəzetin tarixində ilk dəfə olaraq sovet rəhbərinin məruzəsi bir kənara atıldı. Müstəqil respublikanın qəzetində 19 yanvar 1990-cı il Naxçıvan MSSR Ali Sovetinin fövqəladə sessiyasında, muxtariyyətin Konstitusiyasının 81-ci maddəsinə əsaslanaraq (SSRİ-nin Azərbaycanın və Naxçıvanın suverenliyini və ərazi bütövlüyünü müdafiə etmək öhdəliklərinə əməl etməməsi və 1921-ci il çoxtərəfli Qars müqaviləsinin şərtlərini pozması səbəblərindən) SSRİ-nin tərkibindən ayrılması barədə qəbul etdiyi qərar dərc olundu. Akademik İsa Həbibbəyli “Şərq qapısı” qəzetinin 95 illiyi ilə bağlı qələmə aldığı “Şərq qapısı” məktəbi: uzaqdan və yaxından” məqaləsində bu barədə yazırdı: “Şərq qapısı”qəzeti həmin qərarı çap etməklə müstəqil Naxçıvan Muxtar Respublikasının mətbuat orqanı funksiyasını həyata keçirmişdir. 1990-cı ilin yanvar-fevral aylarında “Şərq qapısı” qəzetinin 8 sayı o zaman bütün qəzetlərdə məcburi şəkildə yazılan “Bütün ölkələrin proletarları, birləşin!” şüarı ilə deyil, “Birlik və demokratiya uğrunda” çağırışlı başlığı ilə çap olunmuşdur. Bu, təkcə “Şərq qapısı” qəzetinin yox, XX əsr sovet mətbuatının tarixində nadir hadisədir. Azərbaycan Respublikası dövlət müstəqilliyi qazandıqdan sonra “Şərq qapısı” qəzeti xalqımızın milli dövlətçilik və maarifçilik yollarındakı tarixi hünərini, zəfərlərini və böyük əzmini salnaməyə çevirməkdə davam edir”.

Uzun illər mətbuatda çalışmış və fasiləsiz olaraq 26 il “Şərq qapısı” qəzetində kiçik vəzifədən başlayaraq pillə-pillə daha yuxarı vəzifələrə yüksələn, 10 il qəzetin baş redaktoru vəzifəsini daşıyan Sənubər Kərimova həmin illəri vaxtilə “Şərq qapısı” qəzetinə verdiyi müsahibədə belə dilə gətirirdi: “O vaxtlar redaksiya və mətbəə şəraitsiz binalarda yerləşirdi. Mətbəə avadanlıqları köhnə və yararsız idi. Qəzet bəzən səhərə yaxın hazır olurdu. Sonradan redaksiya və mətbəə üçün yeni binalar inşa edildi. “Şərq qapısı” “Sovet Naxçıvanı – Sovetskaya Naxiçevan” adı ilə böyük formatda, gündəlik rus və Azərbaycan dillərində nəşr edilməyə başladı. Qəzetin rus dili variantı üçün jurnalist kadrları çatışmırdı. Amma redaksiya kollektivi bütün bu çətinliklərə sinə gərərək “Şərq qapısı”nı Azərbaycan Respublikasının müstəqilliyi dövrünə çatdırdı”.

Müstəqil Azərbaycan dövləti əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş hüquqi-demokratik dövlət quruculuğu yolu ilə daha parlaq gələcəyə doğru inamla addımlayır.

“Şərq qapısı” qəzeti daim Naxçıvan ziyalılarının bilik mənbəyi, həyat güzgüsü olub və bir əsrdən çoxdur ki, bu xalqa xidmət edir. Ümummilli Liderimiz ***“Mən “Şərq qapısı” qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün “Şərq qapısı”ndan çox istifadə etmişəm. O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb”***,– deməklə muxtar respublikanın ictimai-siyasi, mədəni həyatında böyük rol oynayan qəzet haqqında müasir oxucuya da bu qəzeti diqqətlə oxumaq fikrini aşılayır, mətbuata maraq oyadır. Sevindirici haldır ki, özünün inkişaf və tərəqqi dövrünü yaşayan, öz simasını dəyişən qədim Oğuz elində gedən dəyişiklikləri, igid oğullarımızın Vətən savaşındakı igidliklərini salnaməläşdirən “Şərq qapısı” qəzetində bu gün yaxşı qələm sahibləri, ziyalılar yetişib.

Qəzet qədim Şərqin qapısı sayılan və çoxəsrlik tarixə və milli mədəniyyətə malik olan Naxçıvan torpağının keçmişini və bu gününü öz səhifələrində işıqlandırmaqla gələcəyimizə zəngin bir tarixi mənbə yaradıb və bu gün də yaradır. 1990-1993-cü illərdə üçrəngli bayrağımız bu qəzetin səhifələrindən anamız Azərbaycana qanad açdı. İlk dəfə Qanlı Yanvar faciəsinə siyasi qiymətin sədası yüksəldi buradan, Xocalı faciəsi “Xocalı soyqırımı” adlandı. Dünya azərbaycanlılarının bir araya gəlməsi, bir Vətən üçün bir yumruq kimi birləşməsi qərarı buradan pərvazlandı. Müstəqilliyi qazandığımız illərdən bu günə bu qəzet muxtar respublikada təhsilə, səhiyyəyə, mədəniyyətə göstərilən sonsuz dövlət qayğısından, bu gün kəndlə şəhərin inkişaf oxşarlığından, ilan mələyən çöllərə, kəndlərə çəkilmiş su xətlərindən gözəlliyi gözoxşayan yaşıllıq zolaqlarından, əsrarəngiz gözəlliyi ilə yaddaqalan yaylaqlarından, barlı-bərəkətli bağlarından, dünya şöhrətli Duzdağın, Gəmiqayanın möcüzələrindən, min bir dərdin dərmanı olan “Sirab”, “Badamlı”, “Vayxır” sularından, od-ocağımızı isıqlandıran çoxsaylı elektrik stansiyalarımızdan söz açır.

Xalqımızın tarixiliyini, milli və mənəvi mədəniyyətini işıqlandırır. “Şərq qapısı” qəzeti hər nömrəsində oxucularını Ümummilli Liderimiz Heydər Əliyevin ***“Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır”*** müdrik kəlamı ilə salamlayır və yeni bir mətbuat tarixinin yazarı olur. Şanlı Vətən savaşının qəhrəman şəhidlərinin igidliyindən bəhs edir oxucularına.

Dünyada çox sayda sənət və minlərlə peşə var. Rəssam şəkil çəkir, bəstəkar musiqi bəstələyir, müəllim təhsilli gənclik yetişdirir, şair şeir yazır, yazıçı əsər. Jurnalistin işi isə dünəni, bu günü yazmaqdır. Sənətini, gördüyü işi ürəkdən sevən hər kəs yaratdığı bir əsərə, ya da ki gözəl bir rəsmə, qələmə aldığı məqaləyə illər sonra baxanda qürurlanır. Çalışdığı işi ürəkdən sevə bilmək, ona aşiq olmaq isə hər kəsə nəsib olmur. Mənim üçün yazmaq, sadəcə, bir qələm və ağ kağızdan ibarət deyil, yazmaq həm də Vətənini qəlbən sevməkdir.

Bu günün biz mətbuat işçiləri xoşbəxtik. Ona görə ki, bizlər Azərbaycan dövlətçiliyinin əməl və yaddaş mərkəzi Naxçıvanın zəngin tarixi keçmişinin və parlaq gələcəyinin yazarı olmaq şərəfinə nail olmuşuq. Və bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qəbul olunan bu qərarı Azərbaycana qayıtdıqdan sonra Naxçıvanda ilk müsahibəsini “Şərq qapısı” qəzetinə verən Ulu Öndərin, qəhrəmanlığı ilə bizə qələbəni qazandıran, dahi rəhbərin arzularını çin edib igidlikləri ilə dillərə dastan olub əfsanəyə dönən ömürləri haqqında yazılan məqalələrlə “Şərq qapısı” qəzetinin səhifələrini şərəfləndirən şəhidlərin ruhuna dərin ehtiramın ifadəsi hesab edirik. Bundan sonra da 103 yaşlı qoca çinarın kölgəsində dövlətimizə və dövlətçiliyimizə sədaqətlə xidmət etməyə can atacağıq.

**✍ Ramiyə ƏKBƏROVA**

## Ulu Öndər Heydər ƏLİYEV:

*“Mən “Şərq qapısı” qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün “Şərq qapısı”ndan çox istifadə etmişəm. O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb.”*

***Bu günlərdə qəzetimiz üçün şad bir xəbər aldıq. “Media haqqında” Qanunda dəyişiklik edilməsi ilə bağlı ölkə Prezidenti cənab İlham Əliyevin imzaladığı Qanunla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin rəsmi orqanı kimi “Şərq qapısı” qəzetinin təsisçi statusu qanunvericiliklə təsbit edilib. Bu, qəzetin gələcək fəaliyyətinin təmin edilməsinə hüquqi əsas yaradıb. Bununla bağlı redaksiyamıza göndərilən təbrik məktubları üçün həmin müəlliflərə minnətdarlığımızı bildirir və onların bir neçəsini oxucularımıza təqdim edirik.***

## Səlahiyyətli nümayəndəlik “Şərq qapısı” qəzetinin kollektivini təbrik edib

“Media haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2024-cü il 19 aprel tarixli Azərbaycan Respublikasının Qanununu təsdiq edib. Bununla əlaqədar olaraq “Şərq qapısı” qəzetinin redaksiyasında tədbir keçirilib.



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Günay Nəzərova tədbiri açaraq Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin təbrikini kollektivə çatdırıb. Fuad Nəcəfli təbrikində bildirib ki, “Media haqqında” Qanuna dəyişiklik edilməsi barədə Qanunun imzalanması cənab Prezidentin mediaya göstərdiyi növbəti qayğısıdır.

Qeyd olunub ki, 103 yaşlı “Şərq qapısı” qəzeti özünün fəaliyyəti dövründə Ümummilli Liderimiz Heydər Əliyevin mətbuat siyasəti sahəsində müəyyənləşdirdiyi istiqaməti əsas götürüb və “Media haqqında” Azərbaycan Respublikası Qanununa edilən müvafiq dəyişiklik qəzetin fəaliyyətində yeni mərhələnin başlanğıcıdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr sektorunun müdiri Rəmzi İbrahimov bildirib ki, Ulu Öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olduğu zamandan bu günə kimi muxtar respublika parlamenti ilk dəfə ölkə Konstitusiyasının ona tanıdığı qanunvericilik təşəbbüsü hüququndan istifadə edərək Milli Məclisdə “Media haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişiklik təşəbbüsü ilə çıxış edib. Qeyd olunub ki, ölkə başçısının bu gün imzaladığı müvafiq Qanunda dəyişikliyə əsasən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin rəsmi orqanı olan “Şərq qapısı” qəzetinin təsisçisi statusunun qanunvericilikdə təsbit edilməsi və qəzetin fəaliyyətinin təmin olunmasının hüquqi əsasının yaradılması mümkün olacaq.

Tədbirdə “Şərq qapısı” qəzetinin baş redaktoru Sara Əzimova kollektiv adından qəzetə göstərilən növbəti qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə minnətdarlığını bildirib.

“Şərq qapısı” qəzetinin baş redaktor müavini Məmməd Babayev və məsul katibi Muxtar Məmmədov bildiriblər ki, bu qayğı kollektivin məsuliyyətini daha da artırmaqla qarşıya mühüm vəzifələr qoyur. Kollektiv var gücü ilə bundan sonra da çalışacaq ki, həmin vəzifələrin yerinə yetirilməsinə nail olsun.

## İlk əmək fəaliyyətinə başladığım “Şərq qapısı” qəzeti muxtar respublikanın salnaməsidir



Bu günlərdə doğma “Şərq qapısı” qəzetinin statusunun rəsmiləşməsi ilə bağlı qərarın verilməsi Prezident cənab İlham Əliyevin Naxçıvanın hərtərəfli inkişafı naminə həyata keçirdiyi ardıcıl islahatların davamı kimi diqqəti cəlb edir.

Gənc jurnalist kimi ilk əmək fəaliyyətinə başladığım bu qəzet muxtar respublikanın bir əsrdən artıq dövrünü əhatə edən salnaməsidir. Xüsusilə ötən əsrin 90-cı illərində Naxçıvan teleradiosu ilə birgə Ulu Öndər Heydər Əliyevin əsas söz tribunasına çevrilən “Şərq qapısı” ölkəmizin müstəqilliyi yolunda öz tarixi missiyasını uğurla icra etmişdir. Sevinirəm ki, doğma qəzetimiz bu gün də özünün analitik məqalələri, hadisələrə obyektiv və operativ yanaşması ilə diqqəti cəlb edir, onlayn medianın diqtə etdiyi kəskin rəqabət mühitində seçilir. Bütün bu yeniliklər münasibətilə həmkarlarımızı təbrik edir, davamlılıq arzulayıram!

**Sahil TAHİRLİ**
***“Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri”Qapalı Səhmdar Cəmiyyətinin sədri***

## Muxtariyyətdən öncə doğulan, muxtariyyətin 100-cü salnaməsində əbədiləşdirilən “Şərq qapısı”



Prezident cənab İlham Əliyev tərəfindən təsdiqlənən “Media haqqında” Qanunda dəyişiklik Naxçıvan Muxtar Respublikası Ali Məclisinin çap mediası subyektinin təsisçisi ola bilmək hüququnu rəsmiləşdiridi. Qərar “Şərq qapısı” qəzetinin hüquqi fəaliyyət göstərə bilməsini qanuniləşdirdi və Ali Məclis qəzetin rəsmi təsisçisi qismində təsdiqləndi.

“Şərq qapısı” qəzeti Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi, elmi, iqtisadi fəaliyyətinin arxivləşdirildiyi mətbuat orqanı olmaqla bərabər həm də Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycanın suverenlik salnaməsinin Naxçıvan dövrünün siyasi-publisistik bazasıdır. 100-cü ilini qeyd etdiyimiz Naxçıvan Muxtar Respublikasının istənilən dövrünün bütün fəaliyyət sahələri məhz “Şərq qapısı” səhifələrində tarixiləşdirilmişdir.

Qərar siyasi baxımdan həm də ona görə aktualdır ki, Ümummilli Lider Heydər Əliyevin Ali Məclisə rəhbərlik etdiyi dövrdən bəri ilk dəfə olaraq muxtar respublika parlamenti Milli Məclisdə qanuna dəyişiklik edilməsi ilə bağlı məsələ qaldırdı və təşəbbüs müsbət nəticələndi.

Düşünürəm ki, bu muxtar respublikamızın 100 illiyi ərəfəsində cənab Prezidentin Ali Məclisə, doğma qəzetimizə, ümumilikdə, muxtar respublika ictimaiyyətinə növbəti yubiley töhfəsi oldu.

Bu münasibətlə “Şərq qapısı” qəzetinin kollektivini və təşəbbüsün qanuni status almasında rolu və zəhməti keçən hər kəsi təbrik edirəm!

**Aidə CƏLİLZADƏ**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin sədr müavini, Naxçıvan Dövlət Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru***

## Cənab Prezidentin Naxçıvan ictimai mühitinə növbəti töhfəsi



Naxçıvan Muxtar Respublikasının 100 illik şərəfli tarixinə şahidlik edən, bəşəriyyətin əsas sivilizasiya mərkəzlərindən olan doğma Naxçıvanın müxtəlif tarixi mərhələlərdə ictimai-siyasi, ədəbi-mədəni proseslərini işıqlandıran, millilik və maarifçilik ideyalarının təbliğində mühüm rol oynayan, milli şüurun və təfəkkürün aşılanmasında müstəsna tarixi xidmətləri ilə seçilən “Şərq qapısı” ölkəmizin milli müstəqil mətbuatının əsasını qoymaqla böyük bir missiyanı gerçəkləşdirib.

“Şərq qapısı”nın sovet qılıncının kəsdiyi bir zamanda qəzetlərdə məcburi şəkildə yazdırılan “Bütün ölkələrin proletarları, birləşin!” şüarı ilə deyil, “Birlik və demokratiya uğrunda” çağırışlı başlıqla oxucusunun qarşısına çıxması mətbuat tarixində nadir hadisələrdən biri idi.

Ən ağır iqtisadi böhranda, ən gərgin bir vaxtda – erməni işğalı təhlükəsi ilə üz-üzə qaldığımız vaxtda isə Ulu Öndərin yüksək qayğısı ilə qəzetin fəaliyyəti təmin edildi, bağlanmasına imkan verilmədi, maddi təminatı hər zaman diqqətdə saxlanıldı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2024-cü il 1 may tarixdə imzaladığı “Media haqqında” Azərbaycan Respublikası Qanununun 59.2-ci maddəsinə müvafiq dəyişiklik edilməklə Azərbaycan Respublikasında çap mediası subyektinin təsisçisi ola bilən dövlət orqanlarının siyahısına Naxçıvan Muxtar Respublikasının Ali Məclisi də əlavə olunmaqla “Şərq qapısı” qəzetinin təsisçisi statusunun qanunvericilikdə təsbit edilməsi və qəzetin fəaliyyətinin təmin olunmasının hüquqi əsasını yaratması muxtar respublikanın möhtəşəm inkişafının strategiyasını müəyyənləşdirən cənab Prezidentin Naxçıvan ictimai mühitinə növbəti töhfəsidir.

Əminik ki, “Şərq qapısı” qəzeti bundan sonra da Naxçıvan Muxtar Respublikasının canlı salnaməçisi rolunda çıxış edərək inkişaf edən, yeniləşən, müasirləşən Naxçıvanın bu gününü aydın şəkildə əks etdirəcək, milli mətbuatın inkişafına öz töhfələrini verəcəkdir.

**Arzu ABDULLAYEV**
***Naxçıvan Dövlət Universitetinin prorektoru, tarixçi-alim***

## “Media haqqında” Qanunda dəyişikliyin edilməsi qəzetin fəaliyyətində yeni mərhələnin başlanğıcı olacaq



“Şərq qapısı” qəzeti Naxçıvan Muxtar Respublikasının tarixini, keçdiyi inkişaf yolunu gələcək nəsillərə çatdıran salnamədir. Eyni zamanda 103 yaşlı bu mətbuat orqanı tədqiqatçılar, araşdırmaçılar, elm adamları, media mənsubları üçün etibarlı mənbədir. Təsadüfi deyil ki, 1990-1993-cü illərdə görkəmli dövlət xadimi, Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın xilası naminə həyata keçirdiyi tədbirlər, qəbul etdiyi tarixi qərarlar məhz “Şərq qapısı” qəzeti vasitəsilə geniş xalq kütləsinə çatdırılıb. Həmin dövrdə bu mətbu orqan Ulu Öndərin milli dövlət quruculuğu yolunda fəal mübarizəsini öz səhifələrində əks etdirib, informasiya blokadasının aradan qaldırılmasında mühüm rol oynayıb. Həmin tarixi hadisələr yalnız “Şərq qapısı” qəzetinin səhifələrində əksini tapıb. Ümummilli Liderin ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonrakı illərdə “Şərq qapısı”nın maddi-texniki bazası daha da gücləndirilib.

Ötən dövrdə bu mətbu orqan muxtar respublikanın sosial-iqtisadi və mədəni inkişafına öz töhfəsini verib. “Cavanlar həyatı” kimi fəaliyyətə başladığı andan indiyə qədər ötən 103 ildə “Şərq qapısı”, sadəcə, muxtar respublika rəsmilərinin xitabət kürsüsü olmayıb, həm də regionda ən müxtəlif sahələrdə çalışan, hətta orta və ali təhsil alan sakinlər üçün də əsl tribunaya çevrilib. 2005-2007-ci illərdə Naxçıvan Dövlət Universitetində “Mətbuat tarixi” istiqaməti üzrə magistr təhsili alarkən mənim də yolum bu qəzetin redaksiyasından keçib. İlk vaxtlar, sadəcə, əməkdaşlıq etdiyim “Şərq qapısı” sonradan iş yerimə çevrilib. Rəhmətlik baş redaktor Məmməd Məmmədovun rəhbərlik etdiyi doğma, mehriban bir kollektivin üzvü olmuşam.

Sevinirəm ki, vaxtilə çiyin-çiyinə çalışdığım həmkarım, iş yoldaşım Sara Əzimovanın baş redaktorluğu ilə “Şərq qapısı” qəzeti öz ənənəsini davam etdirir, muxtar respublikadakı ictimai-siyasi, sosial, mədəni, iqtisadi proseslərin əsl güzgüsünə çevrilir. Ötən müddətdə qəzetin əməkdaşlarının sayı artıb, kollektivə yeni simalar cəlb edilib, dərc edilən materialların rəngarəngliyi, əhatə dairəsi, məzmunu, oxunaqlığı artıb.

Əminəm ki, Prezident cənab İlham Əliyevin bu günlərdə imzaladığı Qanunla “Media haqqında” Qanunda dəyişikliyin edilməsi isə qəzetin fəaliyyətində yeni mərhələnin başlanğıcı olacaq. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin rəsmi orqanı olan “Şərq qapısı” qəzetinin təsisçisi statusunun qanunvericilikdə təsbit edilməsi və qəzetin fəaliyyətinin təmin olunmasının hüquqi əsasının yaradılması tarixi hadisə olmaqla yanaşı, ölkə rəhbərliyinin mediaya göstərdiyi qayğının daha bir əyani nümunəsidir. Bu həm də “Şərq qapısı” ailəsinə böyük etimad, onların üzərinə düşən məsuliyyət, qarşılarına qoyulan yeni və mühüm vəzifələrdir. Ona görə də “Şərq qapısı” qəzetinin baş redaktoru Sara Əzimovanı və rəhbərlik etdiyi kollektivi, ümumən, bütün muxtar respublika sakinlərini bu münasibətlə təbrik edirəm. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının daha da inkişafı naminə informasiya cəbhəsinin əsgərləri sayılan doğma kollektivə, həmkarlarıma yeni-yeni yaradıcılıq uğurları və nailiyyətlər arzulayıram.

**Rufik İSMAYILOV**
***Medianews.az saytının baş redaktoru, “Baku TV”-nin Qərbi Azərbaycan Departamentinin əməkdaşı-aparıcısı***

## “Şərq qapısı” – Naxçıvan mediasının 103 yaşlı əfsanəsi



Ölkə başçısı “Media haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişikliyin edilməsi ilə bağlı müvafiq Qanunu imzaladı və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə çap mediası subyektinin təsisçisi olmaq statusu verildi. Bununla da “Şərq qapısı” qəzetinin təsisçisi statusu qanunvericiliklə təsbit edilir.

Bu qərar 103 yaşlı yaşayan əfsanənin – “Şərq qapısı”nın həyatında yeni mərhələnin başlanması deməkdir. Bu o qəzetdir ki onun bir əsrdən artıqdır, işıq üzü görən saylarında tanıdığımız və tanımadığımız Naxçıvan yaşayır. Qəzet tarixdir, günün salnaməsini yaratmaqdır. Qəzetçilik isə, mənə görə, çap mediası kimi klassik jurnalistikanın ən çətin qoludur. Qoy bu fikrimə görə TV və radio sahəsində çalışan həmkarlarımız qətiyyən məndən inciməsin. Qələm sahibi qəzetdə daha çox püxtələşir, bədii təsvirini zənginləşdirir. “Şərq qapısı” bizim kimi yüzlərlə jurnalistə qucaq açıb, məktəb rolunu oynayıb, bizi peşəkar jurnalistikaya hazırlayıb, ziyalı tribunası, söz çələngimiz olub. İndi qəzetin fəaliyyəti ilə bağlı hüquqi statusun yaranması elə ən çox ömür-gününü “Şərq qapısı”na həsr edənləri, həmçinin ziyalıları və kənar müəllifləri sevindirir. Bir media mənsubu kimi ölkə liderinə minnətdarlıq etməyi özümə mənəvi borc bilirəm.

Ömrünə ömür calanıb, 103 yaşlı həmişəcavanımız. Hər zaman publisistik duyğularımızın, analitik qabiliyyətimizin, dinamik xəbər yaradıcılığımızın güzgüsü olmağın diləyi ilə baş redaktor və yaradıcı heyətə uğurlar.

**Muxtar RZAZADƏ**

# Demokratik tribunanın, azad sözün, müstəqil mətbuatın ziyasında...

Böyük demokrat Cəlil Məmmədquluzadə deyirdi ki, dünyada hər bir kəs üçün sözdən böyük yadigar yoxdur. Zira ki, mal-mülk tələf olur gedir, amma söz qalır. Bəli, daşdan süzülə-süzülə damlayan su saflaşaraq şəffaf hala gəldiyi kimi, düşünülüb ifadə edilən, yerində, zamanında lakonik şəkildə deyilən sözün qiyməti hər şeydən üstündür. Elə güclü zəkaya əsaslanan söz sənəti hesab olunan jurnalistikada, mətbuat sahəsində də belədir. Zaman-zaman çox insan əlinə qələm alıb fikir yürütməyə, cəmiyyəti istiqamətləndirməyə çalışsa da, bu çətin və məsuliyyətli peşənin yükünü çiyinlərində sonadək layiqincə daşımaq hər kəsə nəsib olmayıb...




Qloballaşan dünyada informasiya-kommunikasiya texnologiyalarının cəmiyyətin inkişafındakı mövqeyi daha da artmaqdadır. Demokratiyanın meyarı hesab edilən söz və mətbuat azadlığı senzuraya məruz qalan cəmiyyətlərdə insan hüquqlarının tez-tez pozulması ilə nəticələnə bilir. Bu səbəbdən beynəlxalq qurumlar və demokratik təsisatlar həmin vəziyyəti xüsusi diqqətdə saxlamaqla bir sıra qərarlar qəbul ediblər. XX əsrin son onilliyində dünyada yaranmış siyasi reallıqları nəzərə alan müxtəlif ölkələrin jurnalistləri azad mətbuat prinsiplərinin manəesiz yayılması və bəşəri bəlalara qarşı birgə mübarizənin zəruriliyini bildirib. Nəticədə, 1991-ci il mayın 3-də Namibiyanın Vindhuk şəhərində Bəyannamə qəbul olunub, YUNESKO-nun tövsiyəsi əsasında isə 1993-cü ilin mayın 3-ü BMT Baş Assambleyası tərəfindən Ümumdünya Mətbuat Azadlığı Günü elan edilib. Bəyannamənin qəbulundan 31 il keçsə də, bütün digər insan hüquqlarının hərəkətverici qüvvəsi kimi informasiya axtarmaq, ötürmək və almaq azadlığı aktual olaraq qalır. Bir çox ölkələrdə müstəqil medianın yayılması və rəqəmsal texnologiyaların yüksəlişi informasiyanın sərbəst axınına şərait yaradıb. Bununla belə beynəlxalq ictimaiyyətin üzləşdiyi çoxsaylı böhranlar – münaqişələr və zorakılıq, miqrasiyaya səbəb olan davamlı sosial-iqtisadi bərabərsizliklər, ekoloji böhranlar və bütün dünyada insanların sağlamlığı və rifahı üçün problemlər çox vaxt dezinformasiyanın çoxalması ilə nəticələnir ki, bu kritik vəziyyətlərə və təhdidlərə qarşı durmaqda mətbuat azadlığı, jurnalistlərin təhlükəsizliyi və informasiyaya çıxış əsas yer tutur.

Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 19-cu maddəsində təsbit olunmuş ifadə azadlığı hüququ bütün digər insan hüquqlarından istifadənin ilkin şərti və hərəkətverici qüvvəsidir. Bu baxımdan Ümumdünya Mətbuat Azadlığı Günü bütün digər insan hüquqlarından istifadənin açarı kimi müstəqil, plüralist media olaraq yeni mətbuat azadlığına çağırışdır. 1997-ci ildən etibarən təsis edilmiş Ümumdünya Mətbuat Azadlığı Mükafatı dünyanın istənilən yerində mətbuat azadlığının müdafiəsində və ya təşviqində böyük töhfələri olan, xüsusən də mətbuat azadlığının təmin edilməsində müstəsna xidmətlər göstərən layiqli şəxsə, təşkilata və ya quruma verilir. Ümumdünya Mətbuat Azadlığı Günü ölkəmizdə də fəal dəstəklənir, insan hüquqlarının müdafiəsi, söz və mətbuat azadlığı kimi məsələlərə xüsusi önəm verilir. Məlumdur ki, Azərbaycanda mətbuatın əsası 1875-ci il iyulun 22-də "Əkinçi" qəzetinin nəşri ilə qoyulub. Mətbuat tariximizin solmayan günəşi olan bu qəzetin yaradıcısı Həsən bəy Zərdabi onun əsas məqsəd və vəzifələrindən biri kimi insanların məlumat almaq hüquqlarını üstün tutaraq yazırdı: "Qəzetin muradı xalqın gözünü açmaqdır, həyatda olan işləri ayna kimi xalqa göstərsin ki, xalq da onun əlacının dalınca getsin". "Əkinçi"dən güc alan Azərbaycan mətbuatı bu gün fəaliyyətini günümüzün reallıqları səviyyəsində qurmağı bacaran müstəqil media vasitəsinə çevrilib.

Mətbuatın əsas silahı olan söz və azad düşüncənin həqiqi azadlığa qovuşması Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Dahi şəxsiyyət müstəqil mətbuatın inkişafına xüsusi diqqət yetirib, 1998-ci il 6 avqust tarixli "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanla ölkəmizdə söz, fikir və mətbuat azadlıqlarının təminatına əlverişli şərait yaradıb, senzura ləğv olunub, dövlətin mətbuat üzərində nəzarətinə son qoyulub. Azərbaycan Respublikasının Konstitusiyasında söz, fikir və mətbuat azadlığı təsbit olunub. Ulu Öndərin müvafiq Sərəncamı ilə "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə Tədbirlər Proqramı" təsdiq edilib. Bir sıra qəzetlərin Azərbaycan nəşriyyatına olan borclarının ləğvi onların fəaliyyətinə böyük töhfə verib. Məhz milli mətbuatın inkişafına göstərdiyi qayğının nəticəsi idi ki, 2002-ci ildə Ümummilli Lider Heydər Əliyev "Jurnalistlərin dostu" mükafatına layiq görülərək dünya siyasətçiləri arasında bu mükafatı almış ilk dövlət başçısı olub. Ulu Öndər öz çıxışlarında mətbuatın rolu, onun əsas vəzifələrindən bəhs edərək deyirdi: ***"Mətbuat demokratiyanı dərinləşdirən, siyasi inkişafa təkan verən qüdrətli vasitədir. O, həyatın güzgüsü, həqiqətin carçısı olmalıdır, insanları yüksək ideallar uğrunda mübarizəyə səsləməli və səfərbər etməlidir".***

Bu gün görkəmli dövlət xadiminin mütərəqqi siyasəti Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. Ölkəmizin media məkanında mövcud qanunvericilik daha da təkmilləşdirilir. Bu məqsədlə dövlət başçısının 2021-ci il 12 yanvar tarixli "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı ilə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs yaradılıb. Prezident cənab İlham Əliyev tərəfindən 2022-ci il 8 fevral tarixdə təsdiq olunmuş "Media haqqında" Azərbaycan Respublikasının Qanunu media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir. Qanun, həmçinin jurnalistlərin peşəkar fəaliyyətinin maneəsiz və effektiv həyata keçirilməsinə, media subyektlərinin yaradıcılıq və redaksiya müstəqilliyinin ən etibarlı şəkildə müdafiəsinə və ifadə azadlığının möhkəmləndirilməsinə yönəlmiş təminat mexanizmlərinin daha da gücləndirilməsi üçün hüquqi əsas formalaşdırır.

Həmçinin ötən il Prezident cənab İlham Əliyevin təsdiqlədiyi Vergi Məcəlləsinə dəyişikliyə əsasən media subyektləri (audiovizual media subyektləri istisna olmaqla) tərəfindən istehsal olunan media məhsullarının təqdim edilməsi, habelə Azərbaycan Respublikasında daimi nümayəndəlik yaratmayan qeyri-rezident şəxslər tərəfindən media subyektlərinə (audiovizual media subyektləri istisna olmaqla) media fəaliyyəti ilə bilavasitə bağlı olan işlərin görülməsi və xidmətlərin göstərilməsi əlavə dəyər vergisindən azad edilib. Eyni zamanda media subyektlərinin öz fəaliyyətləri nəticəsində əldə etdikləri gəlirlər, o cümlədən reklam gəlirləri, habelə onlara Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən verilən maddi yardımlar gəlir vergisindən, mənfəət vergisindən və sadələşdirilmiş vergidən azad edilib. Bütün bu amillər, eləcə də milli mətbuatın ildönümlərinin dövlət səviyyəsində geniş qeyd olunması, mediaya yardımların göstərilməsi, mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması, güzəştli ipoteka şərtlərinin müəyyənləşdirilməsi, jurnalistlərin fəxri adlar və dövlət mükafatları ilə təltif edilməsi, onlarla mütəmadi görüşlər mətbuata və mətbuat işçilərinə qayğının bariz göstəriciləridir.

Azərbaycan mediası söz və informasiya azadlığı hüquqlarından istifadə edərək ölkənin ən çətin anlarında, xüsusilə də İkinci Qarabağ müharibəsində üzərinə düşən vəzifəni layiqincə yerinə yetirdi. Müzəffər Ordumuzun şanlı zəfəri ilə bitən 44 günlük Vətən müharibəsində və sonrakı dövrdə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında informasiya cəbhəsinin əzmkar döyüşçüləri – jurnalistlərin fəaliyyəti olduqca böyük idi. Bu sahədə ən böyük missiyanı isə Ali Baş Komandan, Prezident cənab İlham Əliyev reallaşdıraraq Vətən müharibəsi dövründə 30-dan çox beynəlxalq media qurumuna geniş müsahibələr verib, bu gün və gələcək üçün aktual olan tarixi və jurnalistika dərsləri keçib.

Ölkə başçısının rəhbərliyi ilə Naxçıvanda da media sahəsində ciddi keyfiyyət dəyişiklikləri əldə olunub, azad mətbuatın formalaşmasına şərait yaradılıb. Dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətinin yaxşılaşdırılması, kütləvi informasiya vasitələrinin fəaliyyətinin genişləndirilməsi bu sahədə mühüm nailiyyətlərin qazanılmasına əsas verib. 2005-ci ildə Naxçıvan Mətbuat Şurasının, 2010-cu ildə "Şərq qapısı" qəzeti redaksiyası və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni binanın istifadəyə verilməsi və müasir mətbəə avadanlıqlarının quraşdırılması, cari ildə Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin Naxçıvan Regional İdarəsinin yaradılması bu sahənin inkişafına yeni imkanlar açıb. Ötən müddətdə mətbuat sahəsində çalışanların əməkhaqları artırılıb, əməyi ilə fərqlənən jurnalistlər fəxri adlara layiq görülüb. "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin ötən müddətdə maddi-texniki bazası gücləndirilib, yeni yayım avadanlıqları tətbiq olunub, televiziyanın efir vaxtı 17 saata çatdırılıb, Bakı bürosu fəaliyyətə başlayıb, müasir yayım və çəkiliş avadanlıqları alınıb. Televiziya tərəfindən Ulu Öndər Heydər Əliyevin və Naxçıvan Muxtar Respublikasının 100 illiyi münasibətilə silsilə filmlər hazırlanıb. Bu gün Naxçıvan teleradiosu gənc jurnalistlərin formalaşmasına öz töhfəsini verir. Muxtar respublikanın mərkəzi icra hakimiyyəti orqanlarında mətbuat və ictimaiyyətlə əlaqələr üzrə vəzifələrin təsisi dövlət orqanları ilə media arasında informasiya siyasətinin həyata keçirilməsində mühüm rol oynayıb. Muxtar respublikanın ən ucqar kəndlərində də genişzolaqlı internet, eləcə də IP və rəqəmsal televiziya xidmətləri göstərilməsi informasiyaya əlçatanlığı təmin edib. Naxçıvan Dövlət Universitetində müvafiq ixtisasda təhsil alan tələbələrin gənc jurnalist kimi yetişməsi üçün hər cür şərait yaradılıb. Belə ki, ali təhsil ocağının Media Mərkəzində fəaliyyət göstərən "Qeyrət" nəşriyyatı, Universitet televiziyası və "Nuhçıxan" radiosu gənc jurnalistlərin nəzəri biliklərlə yanaşı, praktiki vərdişlərə də yiyələnməsinə mühüm töhfələr verir. Muxtar respublikanın aparıcı mətbuat orqanı "Şərq qapısı" qəzeti, eləcə də Naxçıvanda fəaliyyət göstərən "Nuhçıxan" İnformasiya Agentliyi, "naxcivanxeberleri.com" saytı, digər informasiya agentliklərinin büroları regionda baş verən hadisələrin geniş oxucu kütləsinə operativ çatdırılmasında mühüm rol oynayır. 2024-cü ildə "Şərq qapısı" qəzetinin saytında və sosial şəbəkə hesablarında oxucu, izləyici saylarında kifayət qədər artımın, aktivliyin müşahidə olunması media fəaliyyətində yeni yanaşmanın, keyfiyyət dəyişikliklərinin, formalaşdırılan sərbəst yaradıcı mühitin nəticəsidir. Mayın 1-də Prezident cənab İlham Əliyevin təsdiqlədiyi "Media haqqında" Qanunda dəyişikliyə əsasən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Şərq qapısı" qəzetinin təsisçisi statusunun qanunvericilikdə təsbit edilməsi və qəzetin fəaliyyətinin təmin olunmasının hüquqi əsasının yaradılmasıısə mətbuat orqanının önündə yeni üfüqlər açır. Bu məqamda "Şərq qapısı" qəzetinin həm ölkə, həm də muxtar respublika üçün tarixi-siyasi əhəmiyyəti barədə kiçik xatırlatma etmək yerinə düşər. Belə ki, Ümummilli Lider Heydər Əliyev ötən əsrin 90-cı illərdə Naxçıvanda yaşadığı, Ali Məclisin Sədri kimi çalışdığı dövrdə xalqın rifahı naminə həyata keçirdiyi işlər, qəbul etdiyi tarixi qərarlar, sərəncam və fərmanlar "Şərq qapısı" qəzeti vasitəsilə geniş oxucu kütləsinə çatdırılıb. Dahi şəxsiyyət 1990-cı ildə Moskvadan Vətənə qayıtdıqdan sonra ilk müsahibəni də məhz bu qocaman mətbuat orqanına verib. Ulu Öndər "Şərq qapısı" qəzetinin fəaliyyətini yüksək qiymətləndirərək deyirdi: ***"Mən "Şərq qapısı" qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün "Şərq qapısı"ndan çox istifadə etmişəm. O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb".*** Bu baxımdan ölkə başçısının təsdiqlədiyi "Media haqqında" Qanuna dəyişiklik 103 yaşlı qəzetin timsalında tarixi mətbu ənənələrinə, Ulu Öndər irsinə verilən dəyərin təzahürüdür. Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ilə əlaqədar Naxçıvan, Türkiyə və Bakıda təşkil olunan qəzetin fotoqrafları tərəfindən çəkilən fotolardan ibarət "Naxçıvan fotolarda" adlı foto-sərgi isə fotojurnalistikanın müasir inkişafını göstərməklə yanaşı, diyarımızın turizm potensialının təbliği baxımından mühüm əhəmiyyət daşıyır.

*Hadisələrin aktiv şəkildə dəyişdiyi, dezinformasiyaların geniş yayıldığı müasir dünyamızda insanlar mediada yayımlanan düzgün, dəqiq informasiyaları əldə etməyə böyük ehtiyac duyur. Ölkəmizin çoxsaylı media nümayəndələri də fəaliyyətlərində bu amili əsas tutaraq jurnalistikanın etik dəyərlərini yaşatmağa, Vətənə, xalqa qərəzsiz, vicdanla xidmət etməyə çalışırlar. Demokratik tribunanın, azad sözün, müstəqil mətbuatın ziyasında Azərbaycan jurnalisti adını ləyaqətlə daşıyan hər bir jurnalistin ölkə həqiqətlərini dünyaya çatdırmaq işində, informasiya yarışında hər zaman ön sıralarda yer alması arzusu ilə...*



**Nail ƏSGƏROV**

## Ümumdünya Mətbuat Azadlığı Günü qeyd olunub

Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) təşəbbüsü ilə 3 may – Ümumdünya Mətbuat Azadlığı Günü münasibətilə tədbir keçirilib.

Tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, sonra Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, videoçarx izlənilib.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Günay Rzayeva çıxış edərək bildirib ki, insan hüquq və azadlıqlarının ayrılmaz hissəsi olan söz, fikir və ifadə azadlığı və bunların təminatı hər bir ölkədə demokratiyanın inkişafını və hüquqi təsisatların uğurlu işləməsinin əsasını təşkil edir. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı", həmçinin 1998-ci il 6 avqust



tarixdə imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərman ölkəmizdə söz, mətbuat və fikir azadlıqlarının təminatına əlverişli şərait yaradıb. 2001-ci ildə isə Mətbuat və İnformasiya Nazirliyinin ləğv olunması dövlətin mətbuat üzərində nəzarətinə tamamilə son qoyub. 1999-cu ildə "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununun, sonrakı dövrlərdə isə "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında", "Məlumat azadlığı haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında" Azərbaycan Respublikasının qanunlarının qəbul edilməsi də kütləvi informasiya vasitələrini cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr sektorunun müdiri Rəmzi İbrahimov bildirib ki, bu gün muxtar respublikada aparılan sosial-iqtisadi islahatlar media sahəsini də əhatə edib. Naxçıvan televiziyasının, "Şərq qapısı" qəzetinin internet saytlarının, media hesablarının operativ fəaliyyətinin təmin olunması, maddi-texniki bazalarının gücləndirilməsi, kadr islahatlarının aparılması, Naxçıvan teleradiosunun internet üzərindən yayımlanması, muxtar respublikada ölkə telekanallarının və informasiya agentliklərinin müxbir postlarının fəaliyyət göstərməsi, mərkəzi media qurumlarının muxtar respublikadakı nümayəndələri ilə sıx əlaqələrin qurulması Naxçıvanın informasiya blokadasının yarılmasına, qədim diyar haqqında məlumatların ictimaiyyətə daha operativ çatdırılmasına imkan verir.

Qeyd olunub ki, muxtariyyətin 100 illiyi, eləcə də Ümumdünya Mətbuat Azadlığı Gününə töhfə kimi ümumi dizayn, məzmun, istifadəçi rahatlığı, texniki imkanlar nəzərə alınmaqla Ali Məclisin saytı yenidən qurularaq istifadəyə verilib. Həmçinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2024-cü il 1 may tarixdə imzaladığı "Media haqqında" Qanuna dəyişikliklə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Şərq qapısı" qəzetinin təsisçisi statusunun qanunvericilikdə təsbit edilməsi təmin olunub. Muxtar respublikada mətbuata göstərilən qayğı nəticəsində ona nail olunub ki, bir vaxtlar həm texniki avadanlıq, həm də yaradıcı kadr baxımından məhdud imkanlara malik Naxçıvan mətbuatı bu gün ölkə və dünya media orqanları ilə qarşılıqlı əməkdaşlıq edir.

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov bildirib ki, ölkəmiz söz azadlığının, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması sahəsində böyük və uğurlu yol keçib. Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra ölkədə müstəqil mətbuat inkişaf edib, söz və məlumat azadlığının yüksək səviyyədə təmin olunması istiqamətində ardıcıl, məqsədyönlü tədbirlər həyata keçirilib. Hazırda bu siyasi kurs dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Naxçıvan mətbuatı da yaradılmış şəraitdən istifadə edərək ölkəmizin ümumi inkişafına öz töhfəsini verir.

Tədbirdə çıxış edənlər media nümayəndələrini əlamətdar gün münasibətilə təbrik edib, onlara yaradıcılıq uğurları arzulayıblar.

✍ Səbuhi HƏSƏNOV

# Dünyaya açılan pəncərə

Sosial həqiqətin obyektiv və subyektiv hadisəsi kimi meydana gələn kitab dünya mədəniyyətinin yaranmasında və inkişafında misilsiz rol oynamaqla bərabər, bəşəriyyətin mədəni yüksəlişində yeni və yüksək pillədir. Kitabın insanın ictimai-siyasi və mənəvi keyfiyyətlərinin yaranmasında, formalaşmasında və inkişafında həlledici rolu tarixin bütün dövrlərində özünü göstərib. Böyük zaman daxilində təhsilin, elmin, biliyin, məlumatın, maarif və mədəniyyətin, texniki tərəqqinin inkişafı ilə əlaqədar olaraq kitaba ehtiyac gündən-günə artıb. Bu, kitabın cəmiyyətdə yerinə yetirdiyi bir sıra zəruri funksiyalarla əlaqədardır. Nəticədə, kitab çox sürətlə inkişaf edib, bəşəriyyətin tərəqqipərvər və sadə adamlarını, şair və yazıçılarını, alim və mütəfəkkirlərini, dövlət başçılarını düşündürüb, bir sözlə, cəmiyyətin, bütün insanların diqqətini özünə cəlb edib. Bilik xəzinəsinin qapılarını üzümüzə açan kitabların insanların mənəvi inkişafında, onların şəxsiyyət kimi formalaşmasında, dünyagörüşünün zənginləşməsində necə mühüm rol oynadığını hamımız yaxşı bilir, lakin, təəssüf ki, çoxumuz bundan yararlanmağı bacarmırıq. Buna görə də mütaliə mövzusu vaxtaşırı olaraq televiziya və radioda, mətbuatda əsas müzakirə predmetinə çevrilir. Kimisi gənc nəslin mütaliəyə marağının azlığından, kimisi Azərbaycan dilində lazımi ədəbiyyatların olmamasından gileylənir, kimisi də əksinə – mütaliəyə maraq göstərənlərin sayının getdikcə artdığını düşünür. Bu müzakirələrdə hər kəsin özünəməxsus cavabları və yanaşma tərzi olur. Elə mənim də...

Bəli, bu gün kitab oxumaq bəzi insanların maraqlı məşğuliyyəti olsa da, kitaba münasibət hər halda dəyişib. O mənada ki ölkədə kitab oxuyanların sayı keçmişlə müqayisədə xeyli azalıb. Məsələyə təkcə Azərbaycan miqyasında deyil, qlobal müstəvidə yanaşdıqda məlum olur ki, kitaba olan tələbat bütün dünyada aşağı düşüb. Bunun bir sıra obyektiv səbəbləri var. Bəzən fikirlər səslənir ki, bəşəriyyətdə yeni analoji imkanların meydana gəlməsi, kompüter, telefon və sair kimi texnologiyaların böyük sürətlə inkişafı istər-istəməz kitablara olan diqqəti ikinci plana keçirir. Artıq insanlarda yeni maraqlar, yeni axtarışlar formalaşmağa başlayır. Bəs kitab nə üçündür, onun mahiyyəti, faydasını və vacibliyini dərk edirikmi?

Kitab bəşər həyatında qalacaq miras, inkişaf yaradıcı və ziyalandıran vasitədir. Kitab elm və mərifət dünyasına açılan qapıdır. Mütəxəssislərin fikrincə, mütaliə insanı kamilləşdirir, onun nitq qabiliyyətini inkişaf etdirir. Mütaliə insanı bəd əməllərdən saxlayır və onu yaxın-uzaq keçmişlərə aparır. Elə kitablar var ki insan həyatında mühüm rol oynayır. Kimi həmin kitablardakı qəhrəmanların müsbət keyfiyyətlərini mənimsəyərək, kimi də oradan öyrəndiklərini həyatda tətbiq edərək yaşayışını qurur. Yaxşı kitab aqil insanın həyatına həmişə işıq salan vasitə olub. Almaniyalı professor Fişerin sözlərinə görə, "İnsan düşündükcə beyin tutumu, düşünmə imkanları və qabiliyyəti inkişaf edir. Beyin işlədikcə inkişaf edən, istifadə edilmədikdə isə ən sürətlə kütləşən insan orqanıdır. Bu kütləşməni aradan qaldırmaq üçün bir həftə zehni məşğələ etmək lazımdır".

Bu fikirdən çıxan nəticə aydındır: kitab oxumaq insan psixologiyasına və səhhətinə də müsbət təsir göstərir. Kitab oxumağın orqanizmə faydasını araşdıran britaniyalı alimlər də maraqlı nəticələr əldə ediblər. Onların qənaətinə görə, cəmi 6 dəqiqə kitab oxumaq insanda stresin səviyyəsini üç dəfə azaldır. Başqa üsullarla müqayisədə kitab oxumaq insanı daha tez sakitləşdirir və yüngülləşdirir.

Belə olan təqdirdə sual ortaya çıxır: niyə kitab oxumuruq? Bəlkə, həqiqətən də, kitabın faydası barədə bizə məsləhət verən olmayıb?! Bəzən belə fikirlər səslənir ki, indiki gənclər kitab oxumur! Bu sahədə olan araşdırmamız göstərdi ki, reallıq tam əksinədir, yəni oxucuların böyük əksəriyyəti elə gənclərdir.

İngilis yazıçısı Frensis Bekon deyir: "Kitablar zamanın dalğaları ilə səyahət edən və nəsildən-nəslə öz qiymətli yükünü ehtiyatla aparan fikir gəmiləridir". Bəli, unutmayaq ki, milli ruhu, mənəvi dəyərləri, tarixi, mədəniyyəti, dövlətçiliyi qorumaq, onları yaşatmaq və gələcək nəslə çatdırmaqda kitabların rolu danılmazdır. Çünki kitablar, xalqın ulu keçmişini özündə yaşadan və gələcək nəslə çatdıran faktdır, sübutdur.

✍ Gülcamal TAHİROVA

# Kitab oxumağı necə sevdirək?




"Bir insanın dəyəri onun oxuduğu kitablarla ölçülür", – deyiblər. Bu gün kitab oxumaq bir qrup insan üçün maraqlı məşğuliyyət olsa da, kitab oxuyanların sayı əvvəlki illərlə müqayisədə azalıb. Məsələyə qlobal müstəvidə yanaşdıqda məlum olur ki, dünyada da kitaba olan tələbat azalıb. Bunun bir səbəbi yeni texnologiyaların böyük sürətlə həyatımıza daxil olması, düşüncələrimizə nüfuz etməsidirsə, digər səbəbi isə insanın mənəvi-psixoloji xüsusiyyətləri ilə əlaqəlidir.

Hamımız bilirik ki, kitab oxumaq insanın biliyinin, dünyagörüşünün artırılmasına, nitq qabiliyyətinin inkişafına müsbət təsir göstərir. Nəzərə alsaq ki, texnologiyalar gün keçdikcə biri digərini əvəz edir, yəni qalıcı deyil, lakin kitab nə qədər ki bəşər mövcuddur, gələcək nəsillərə miras olaraq qalacaq. Burada bir sual yaranır ki, hansı kitablar? O kitablar ki yalnız müsbət keyfiyyətlər aşılayır, kamilləşməyə kömək edir, insan həyatına işıq olur. Məişət məsələlərinin, problemlərin qabarıq qələmə alındığı, ailə dəyərlərinə, milli-mənəvi dəyərlərimizə zidd kitablar bir müddətdən sonra, sözsüz ki, unudulacaq, oxunmayacaq.

Müasir dövrümüzdə kitabın az oxunmasının digər səbəbləri kimi çox vaxt kitabsevərlər ona lazım olan kitabları kitabxanalardan tapa bilməməsini, satış mağazalarında kitabların qiymətinin baha olmasını, elektron kitabxanaların, internetin onlar üçün daha əlçatan olmasını göstərirlər. Əsas səbəb kimi isə indiki gənclərin vaxtlarının çox hissəsini telefona, sosial şəbəkələrə ayırması ilə də bağlayırlar.

Bəs kitab oxumağa marağı artırmaq üçün nə etməli? Düşünürəm ki, kitab oxumaq mədəniyyəti əvvəlcə ailədə formalaşdırılmalıdır. Uşaqlara evdə, ailədə kitaba sevgi yaratmalı, həvəsləndirməliyik. Kitab sərgilərinin, kitab oxumağı təşviqlə bağlı maarifləndirici tədbirlərin, kitab diskussiyalarının təşkili, yazıçılarla görüşlər də bu işdə mühüm rol oynaya bilər. Elə 8-11 may tarixlərdə Naxçıvan şəhərində "Saat Meydanı"nda keçiriləcək "BOOKFEST" Naxçıvan Kitab Sərgisi kimi. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi ilə keçiriləcək kitab sərgisinin, xüsusilə gənclərin kitab oxumağa həvəsinin artırılmasında böyük rol oynayacağına inanırıq.

Deyirlər ki, kitab oxumamaq yaxşı deyil, amma oxumadığına görə narahat olmamaq ondan da pisdir. Hər kəs ürəyinə yaxın bildiyi kitabları alıb oxusa, bir-birinə kitab hədiyyə etsə, həm oxumağa həvəs yaranar, həm də kitab oxuyanların sayı artar.

✍ Güntac ŞAHMƏMMƏDLİ





*“Şərq qapısı” qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Şərur rayonunun Maxta kəndindən olan şəhidimiz Əli Məmmədovun anası Seyran Məmmədovanın, Şərur rayonunun Çərçiboğan kəndindən olan şəhidimiz Pərviz Novruzlunun anası Sənubər Novruzovanın və Şərur rayonunun Yengicə kəndindən olan şəhidimiz Elçin İbrahimlinin anası Aynurə İbrahimovanın övladları haqqında xatirələri yer alıb.*

# 100 ilin qəhrəmanları

## Əli Abbas oğlu Məmmədov

*(06.12.1997-23.10.2020)*

### Vətənə əmanət oğul







Əli çox sakit uşaq idi. Həm də çox mehriban, çox da səliqəli idi. Balaca vaxtından idmana meyil göstərirdi. Kəndin uşaqları ilə oynamaqdan yorulmurdu. Saatlarla idman edərdi. Dəfələrlə yarışların qalibi olub.

Qonşumuz Novruz Həsənli şəhid olmuşdu. O, Əlinin dostu idi. Novruz şəhid olanda Əli İstanbuldaydı. Oradan gəldikdən sonra Novruzun məzarına getmişdi. Məzarın şəklini çəkmişdi. Altında da yazmışdı ki, narahat olma, qardaşım, mən də sənin yanına gələcəyəm. Elə də oldu. Sanki ürəyinə damıbmış. Əli müharibəyə getdi. Müharibədə əsgər yoldaşlarına deyib ki, öləndə məni Novruzun yanında dəfn edərsiniz. Biz ona görə Əlini Şərur Şəhidlər xiyabanında deyil, şəhid Novruzun yanında dəfn etmişik.



Sonuncu danışığında dedi ki, ana, biz dağa gedirik. On beş günə gələcəyəm. Düz on beşinci gün balamın şəhid xəbəri gəldi. Döyüşdə olduğu vaxt tez-tez danışırdı. Hər dəfə danışdıqca deyirdi ki, Təhminə sizə əmanət. Sonuncu dəfə dedi ki, ata, müharibədir, hər şey ola bilər. Özünüzdən muğayat olun.

Ata olacağını şəhid olmamışdan iki gün əvvəl bilmişdi Əli. Eşidəndə çox sevinib. Döyüş yoldaşlarına deyirmiş siz əmi olacaqsız, dayı olacaqsız.

Düzdür, Əli bizim başımızı uca edib. Torpaqlarımızın azad olunmasında igidlik göstərib. Ölümün gözünə dik baxıb. Sonda da şəhidliyə yüksəlib. Amma ayrılığı çox çətindir. Dözmək olmur. Birdən ürəyim Əlini elə istəyir ki, heç olmayan kimi. Əli şəhid olduqdan sonra bir oğlu dünyaya gəldi. Atasının adını vermişik nəvəmizə. O da balaca qəhrəman Əlidir. Balaca Əli atasına o qədər oxşayır ki. Bütün hərəkətləri ilə tamamilə atasıdır. İnşallah, atasına layiqli övlad olar. Atası kimi igid, qəhrəman oğul olar.

Allah bütün şəhid balalarımızın məkanını cənnət, ruhunu şad etsin. Biz övladımızı böyüdüb Vətənə əmanət etdik. Vətən sağ olsun!

## Pərviz Qorxmaz oğlu Novruzlu

*(15.10.1997-09.11.2020)*

### Arzusuna çatan Pərviz



Pərviz ailəcanlı övlad idi. Böyüdükcə bunu daha çox hiss edirdim. Atası Türkiyədə olanda özü kənddə iş tapıb işləyərdi. Pulunu alan kimi gəlirdi ki, ana, evə nə alım. Fikirləşirdi ki, atam burada yoxdur, evə nə isə lazım olar. Evdə hər kəsin qayğısına qalardı. Heç sözümdən çıxmazdı Pərviz. Bu münasibəti təkcə bizə qarşı deyildi. Hamı ilə belə davranardı. Pərviz məktəbdə də sakit uşaq olub. Məni və ya atasını bir dəfə də olsun məktəbə çağırıb narazılıq etmədilər.



8-ci sinifdə oxuyanda hərbi liseyə getmək istəyirdi. Məktəbdə yaxşı oxuduğu üçün atası dedi ki, məktəbi bitir, get universitetdə oxu. Cavab verdi ki, yox, mən hərbçi olacağam. Atası icazə vermədi. Bundan sonra dərslərindən soyumağa başladı. Dedi ki, siz məni hərbi liseyə qoymadınız, mən də oxumayacağam. Sonra əsgərliyə getdi. Culfada xüsusi təyinatlılarda xidmət etdi. Dörd ayın əsgəri idi ki, Fəxri fərman aldı. Fəxri fərmanı Pərvizə Naxçıvan Muxtar Respublikasında ən yaxşı snayperçi olduğu üçün vermişdilər.

Xidmətini başa vurduqdan sonra hərbçi işləmək istədi. Atası sərhəd qoşunlarında xidmət etməyi məsləhət bildi. Ancaq o, xüsusi təyinatlıları seçdi. Cəmi dörd ay xidmət etdi, müharibə başladı.



Pərviz oktyabrın 11-i getdi müharibəyə. Xocavənddə olanda zəng vurub atası ilə danışmışdı. Demişdi ki, ata, irəliləyirik. Narahat olmayın, hər şey yaxşıdır. Dörd gün mühasirədə qalıblar. Onda qonşunun oğluna zəng vurub ki, anamgil bilməsin. Şəhid olduqdan sonra qonşumuz bizə dedi. Sonuncu danışığımız 28 oktyabrda oldu.

Şəhid olmağını atası bilirmiş, amma mənə demirmiş. Atasına zəng gələn kimi telefonu götürüb bayırda danışırdı. Soruşurdum zəng vuranın kim olduğunu. Deyirdi ki, bacıoğlumdu, qardaşımdı. Deyirdim ki, onlarla niyə mənim yanımda danışmırsan. Cavab vermirdi. On üç gün sonra bildim ki, Pərviz şəhid olub. Və balamı itirdim. İtirməli oğul deyildi... Hər bir şəhid anası kimi mənim də təsəllim odur ki, torpaqlarımızı onlar qaytardılar. Ruhları şad olsun.

## Elçin İbrahimli

*(26.09.1997-19.09.2023)*

### Elin qəhrəman oğlu





Elçin 1997-ci il sentyabrın 26-sı anadan olub. Uşaqlığı ürəyi istədiyi kimi keçməyib. Səkkiz yaşı olandan mənim atamın evində yaşamışıq. Elçinin dayısı da, mənim əmioğlum da hərbçi idi. Onlara baxıb deyirdi ki, mən də hərbçi olacağam. Sonra sənədlərini hərbi liseyə verdi.

Çox sakit, çox tərbiyəli, yerini bilən idi Elçin. Müəllimləri də deyirdilər ki, Elçin mədəni uşaqdır. Dərslərinə də ciddi yanaşır. Kursant yoldaşları da xətrini çox istəyirlər.

Heç vaxt mənim yanımdan əl çəkməzdi. Məktəbdən gələndə də aptekə, mənim iş yerimə gələrdi. Onda belə mənsiz qalmırdı. Gələn kimi deyirdi ki, ana, mənim başımı tumarla. Mən də sözünü yerə salmırdım.

Elçin 44 günlük Vətən müharibəsində iştirak etdi. Müharibə başlayanda gecəynən getdi ki, mənim yoldaşlarımın hamısı şəhid olub.

2022-ci ildə sərhəd toqquşmasında da iştirak etdi. O qədər döyüşlərdən keçdi. 23 saat 43 dəqiqəlik antiterror əməliyyatı balamı məndən aldı.




Sonuncu danışığımız döyüşə girən günü oldu. Hər gün səhər mən yuxudan oyadırdım. Deyirdi ki, ay ana, hər gün saat 5-də, 6-da məni oyadarsan. Sentyabrın 17-si də yuxudan oyatdım, gedirdilər Ağdama. Hər gün danışırdıq. Həmin gün, yəni 19 sentyabrda, saat 10 olardı mənə şəkil atdı. Dedi ki, ana, başlayırıq. Soruşdum ki, əmr verildi? Cavab verdi ki, elə əmri gözləyirik. Dedim ki, zəng vurum? Yox, dedi, vurma, yanımda adam var. Dedim görüntülü yox, normal zəng vurum. Dedi ki, gözlə, mən görüntülü yığıram, amma səs eləmə. Zəng vurdu. Mən sakitcə ona baxdım. Gülüb dedi ki, narahat olma, hər şey yaxşı olacaq. Sonra yazdı ki, ana, əmr gəldi, başladıq. Şəkil çəkib atdı mənə. Sonra hey yazdım ki, nə xəbər? Ancaq heç bir xəbər çıxmadı.

Sonra dedilər ki, şəhidlərimiz var. Mən tez əmioğlumu yığdım, əmioğlum heç nə demədi. Sonra qardaşım dedi ki, Elçindən xəbər var. Xəbər o oldu ki, Elçin Vətən oldu!




# Molla Pənah Vaqifin məzarı başında...

Gözəl bir yaz səhəri Şuşada Azərbaycan ədəbiyyatına öz dəstxəti ilə möhür vuran Molla Pənah Vaqifin məzarı başında dayanmışam. Sanki baxışlarımız qarşılaşır və fikrimdə, düşüncəmdə bir anlıq onunla həmsöhbət oluram:

Qarabağ xanlığının ən vəfalı, düşüncəli, xalqını sevən vəziri, Azərbaycanın söz ustadı, illərlə ruhun narahat gəzəndə Şuşanın düşmən əsarətində olan küçələrində, inşasına özün nəzarət etdiyin məscidlər, hamamlar, bulaqlar dağıdılanda, ürəyin yananda Tanrıya əl açıb dualar etdiyin həmin günlərdən sonra Tanrı da haqqımızı haqq elan etdi, – deyirəm.

Tanrı oğullarına elə bir güc verdi ki, keçilməz yolları keçib, aşılmaz uçurumları aşıb, düşmənlə əlbəyaxa döyüşdülər. Qalib olub ruhunuzu azad etdilər. Zəfər qazanıb şanlı tarix yazdılar. Cənnət Şuşanı bizə qaytarmaqla həm də illər öncə tapdalanan namusumuzu təmizləyib, ədəbiyyatımızı, tariximizi, milli dəyərlərimizi azad etdilər.

Onlar Cıdır düzündən keçib döyüşə-döyüşə düşmənin xarabaya çevirdiyi məzarını azad edəndə şəhidlik zirvəsinə yüksələn oğulların son nəfəsini duyanda, igidlər son sözünü sənə deyəndə vüsallarını, arzularını, xəyallarını bir qarış torpağa qurban edəndə, xalqın tarixini dəyişən, öz qanları ilə qızıl səhifə açan oğullar gözlərin önündə Vətənə can qurban verəndə qürur hissi keçirdin. Axı özünün də canı düşmənlər tərəfindən alınmışdı. Sən də Qarabağa qurban etmişdin canını. Məhz ona görə yüz illərdir, sözün, imzan yaşayır.

Xatırlayırsanmı, 1903-cü ildə Firidun bəy Köçərli yazırdı: "Hazırda Vaqifin qəbri çox acınacaqlı bir vəziyyətdədir və heç kəs onu qaydaya salmağın qeydinə də qalmır". Xalq şairi Səməd Vurğunun sovet ittifaqının qanlı illərində məzarının acınacaqlı vəziyyətini görüb dilə gətirdiyi "Qalxacaq, şairim, bir gün heykəlin, Bizim Qarabağın Cıdır düzündə" arzusu həmin illərdə xalqımızın böyük oğlu tərəfindən yerinə yetirildi. Məzarın üzərində abidə və türbə tikilməsi ilə əlaqədar müvafiq göstərişi verən dahi rəhbər 1982-ci il yanvar ayının 14-də, qarlı bir qış günündə məqbərənin açılışında iştirak edərək Şuşa həyatını əks etdirən dövrlərə aid olan 80-ə yaxın eksponata tamaşa etdi. Yadına gəlirmi, 29 iyul-3 avqust tarixlərdə Şuşada Vaqif Poeziya Günləri keçirilmişdi. Bu poeziya bayramı həmin tarixdən etibarən hər il avqust ayında Qazaxdan başlayıb Şuşanın əsrarəngiz Cıdır düzündə yekunlaşırdı. Ta ki həmin qanlı illik kimi. 1992-ci ilin həmin gününə kimi...

Ulu Öndərin açılışında iştirak etdiyi Şuşada məzarın üzərində ucaldılan məqbərən 28 illik işğal dövründə düşmən tərəfindən xarabaya çevrilsə də, igid oğullarımız azad etdi ruhunu da, məzarını da. Qüdrətli Sərkərdə ATA vəsiyyətini yerinə yetirərək həm əziz Şuşanı, həm də sizin ruhunuzu əsirlikdən xilas etdi. 40 il sonra həm Ulu Öndərin, həm də xalqın sevimli şairinin ruhu şad oldu.

Ulu Öndərin layiqli davamçısının göstərişi ilə abadlaşdırıldı məqbərə. Müzəffər Ali Baş Komandan illər əvvəl Ümummilli Liderin məqbərəsinə gəldiyi həmin günün 40-cı ildönümündə məzarını ziyarətə gəldi, 40 il sonra Vaqif Poeziya Günləri keçirildi məqbərənin önündə. Həmin gün səsləndirilən hər cümlə sənin şərəfinə idi. Həmin gün xalqımız üçün bayrama çevrildi. Sevincin ikiqat oldu o günlərdə, həsrətlə gözləyirdin dağıdılan məzarının bərpa olunmasını, əzizlərinin ziyarətini. Artıq 4 ildir ki, doğan Günəş, Ay azad ruhunu işıqlandırır. Azadlığın ətrini duyursan, əzizlərinin addım səslərini eşidirsən.




İllərlə narahat ruhun Şuşanın dumanlı səmasında dolaşmaqdan yorulmuşdu. Bu gün o azad göylərdə üçrəngli, ay-ulduzlu Azərbaycan Bayrağı dalğalandıqca, Şuşanın azadlığı uğrunda canından keçən igid oğulların ruhu ağ göyərçinə dönüb qanad çaldıqca sənin də ruhun sevinir. Xalqımız bunu görür və əmindir ki, bu, əbədi zəfərdir. Hələ bundan sonra çox üfüqlər doğulacaq Şuşa səmasında, günlər, illər keçəcək bu xalq onun tarixində, ədəbiyyatında iz qoyan Vaqifini də, Vətəni uğrunda canından keçib bizi yenidən gözəl yurdumuza qovuşduran igid oğullarını da unutmayacaq.

Ramiyə ƏKBƏROVA

# Zəngəzur xatirələri

## və ya Naxçıvanda qorunan dəyərli irs



Albom vərəqləndikcə Zəngəzur xatirələri canlanır Gülarə xanımın gözündə. Bu fotolarda doğmalıq var, istilik var, bir də illərin kədəri, həsrəti. Şaxtalı qış günlərində isti yuvanı tərk etmənin soyuqluğu...

Mənfur düşmənin dənizdən-dənizə "böyük Ermənistan" yaratmaq xülyası azərbaycanlıların 1905-1906, 1918-1921, 1948-53, 1987-91-ci illər soyqırımı və deportasiyası ilə nəticələnib. Torpaqlarımız işğala məruz qalıb, insanlar öz doğma torpaqlarından məhrum edilib. 1918-ci ildə tarixi şəhərimiz – İrəvan Ermənistana verildi. Tarixi faciəmiz bununla bitmədi. Azğınlaşmış erməni millətçilərinin məkri və təkidinin nəticəsi olaraq 1920-ci ildə sovet hökumətinin qərarı ilə bizim digər tarixi torpağımız Zəngəzuru da Azərbaycandan ayırıb Ermənistana birləşdirdilər. Bununla kifayətlənməyən, yurd-yuvası bəlli olmayan düşmən insanları öz doğma yurdyuvasından didərgin saldı. Bu proses illərlə davam etdi. Ta ki 1988-ci ilə qədər. 1988-ci ildə qışın sərt soyuğunda yurd yuvalarını tərk edən və iliklərinə qədər buz bağlayan zəngəzurlulara istilik verən indi yalnız xatirələrdir. Xatirələr ilmə-ilmə toxunub, bu xalılarda gizlidir, hər naxışında, hər ilməsində. Bu gizlini ancaq öz sahibləri oxuya bilir – zəngəzurlular.

Zəngəzur bölgəsi şərqdən Qarabağla, qərbdən Naxçıvanla əhatələnmişdir. Zəngəzurun tarixi Qarabağ və Naxçıvanla sıx bağlıdır. Odur ki, folkloru, mədəniyyəti də hər iki bölgə ilə oxşardır. Zəngəzur mahalının xalçaçılığını isə tədqiqatçılar daha çox Qarabağ qrupuna aid edirlər. Zəngin təbiəti, bağları ilə şöhrət qazanmış Zəngəzur mahalının əhalisi yüzilliklər boyunca özündə dərin məzmun daşıyan naxışları xalça və xalça məmulatlarının üzərinə həkk etmişlər. Tədqiqatçılar qeyd edir ki, daha çox Ağdü, Ağkənd, Qarakilsə, Şıxlar, Qızılcıq, Murxus, Urud, Comərdli, Şəki kəndlərində xalçaçılıq ənənəsi davam etdirilmiş, bölgə özünün rəngarəng, şux xalçaları ilə şöhrət qazanmışdır. Bu mahalda qoşabuynuz, qarmaqlı, "S" şəkilli, dörd, altı, səkkiz, on iki ləçəkli güllər, spiralşəkilli, ox işarəli, məşəl, şamdan, damğa adlandırılan motivlər çox yayılmışdır.

1918-ci ildən üzü bəri Zəngəzurdan gəlib Naxçıvanda məskunlaşanlar bu dəyərli irsi ya özləri ilə gətiriblər, ya da oradakı çeşnilər əsasında burada toxuyublar. Naxçıvanın, əsasən, Ordubad, Culfa və Şahbuz bölgələrində məskunlaşan zəngəzurluların, demək olar ki, hamısının evində xalça dəyərli irs və yadigar kimi qorunub saxlanmaqdadır. *Əsli Məmmədova* 1997-ci ildə ailəsi ilə birlikdə Murxus kəndindən gəlib. Özləri ilə çox əşya gətirə bilməsələr də, bir dəyər kimi əmək verdikləri xalçaya sahib çıxıblar.



*Gülarə Əliyeva* Comərdli kəndindəndir. Ailəsi ilə birgə Culfa rayonunun Gal kəndində yaşayır. Albomla yanaşı, oradan gətirdiyi xalçalar Zəngəzur xatirələridir. Danışdıqca qəhərlənir. Axı bu xalçalarda anasının, bacısının əməyi var, bu xalçalarda Zəngəzur təbiəti, Zəngəzur havası var. Deyir, xalçaların bir neçəsini övladlarıma cehiz olaraq vermişəm. Əlimdə qalanları da göz bəbəyim kimi qoruyuram. Gülarə müəllimin xalçaları içərisində süjetli bir xalça diqqətimizi çəkir. Öyrənirik ki, 1970-80-ci illərdə Zəngəzurda toxunan əksər xalçalar süjetli olub. Xalçalarda, əsasən, tikmə, toxuma ilə məşğul olan qızlar, dibçəkdə güllər, qoşa maral, tovuzquşu kimi təsvirlər yer alıb.

Daha bir süjetli xalça nümunəsinə Şahbuz rayonunun Nursu kəndində Umudovlar ailəsində rast gəlirik. Ağdü kəndinin gül-çiçəyi, gözəllikləri sanki xalçada dil açıb danışır. Cüt maral təsviri isə güllər içərisindən boylanan canlı təbiət təsviri bağışlayır. 79 yaşlı ***Mürşüd Umudov*** deyir ki, mən özüm bu kənddə doğulmuşam. Yoldaşım da Nursu kəndindəndir. Lakin babalarımız 1918-ci ildə ermənilərin törətdikləri vəhşiliklər üzündən bu kəndə pənah gətiriblər. Evimizdə qorunan və qızlarımıza cehiz verdiyimiz xalçalar isə yoldaşım Səmənnaz xanım Zəngəzur çeşniləri əsasında toxuyub.

Hazırda Bakı şəhərində yaşayan, əslən Comərdlidən olan ***Cəmil Rüstəmov*** yazır: "Zəngəzur mahalı Qafqazın ən gözəl incilərə sahib, son dərəcə əlçatmaz dəyərlərə malik ərazisidir. Bu mahal flora və faunasına görə dünyanın ən zəngin guşələrindən biridir. Əsrlər boyu bu bölgə güclü inkişaf yolu keçmiş və bütün sahələrdə qazandığı uğurları ilə nümunə olmuşdur. Bir çox sahələrdə olduğu kimi, təsviri incəsənətlə, o cümlədən xalçaçılıqla da məşğul olmuş və haqlı olaraq öyünmüşdür. Zəngəzurlu xanımlar xalçalarda hər yerdə olmayan gül-çiçəklərlə yanaşı, o təbiətin gözəllik rəmzi olan maral, ceyran və quş təsvirləri toxumuşlar. Heyvanların cüt şəkildə təsviri həm də bəşəriyyətin cütlükdən yaranışı və davamının təsdiqidir".

Zəngəzur təbiətini xalçalar üzərinə xəsislik etmədən köçürən qərbi azərbaycanlılar sanki yurd yerlərinə həsrət qalacaqlarını bilirdilər. Hər gülünü, çiçəyini oxşaya-oxşaya əziz xatirə kimi xalçalara həkk ediblər. Ərəfsə kəndində Həsənovlar ailəsində qorunan bir xalçada isə qoşa tovuzquşu təsviri yer alıb. 1983-cü ildə toxunan xalçada yazılıb: "Narzadanın kəlməsi, ağlaması, gülməsi, Ölsəm də yaşayacaq barmağımın ilməsi". Narzada xanım kimi zəngəzurlu xanımların hər kəlməsini, sevinc və kədərini xalçalara köçürərək dəyərli irs nümunələri yaradıblar. Bu gün Naxçıvanda evlərdə qorunan bu nümunələr – Zəngəzur xalçaları da o torpağın sahibləri ilə birgə Zəngəzura qayıdacaq.

**Ruhiyyə RƏSULOVA**
***Naxçıvan televiziyasının baş redaktoru***













# Bir bahar gününün düşüncələri

Qoca Şərqin qapısında vüqarla, əzəmətlə, məğrurluqla dayanan, günü-gündən cavanlaşan, qədim Naxçıvanım! Nuhun izləri yaşayan diyar! Böyük Mirzə Cəlilin, Hüseyn Cavidin ana Vətəni! Beşminillik şəhər mədəniyyətinə malik olan ulu yurd yerim. Görkəmli dövlət xadimi Heydər Əliyevi dünyaya bəxş edən müqəddəs məmləkət! Səndə tarixlərin çox nişanı var. Sənin dününənə boylanıram, bu gününə baxıram, sabahını görürəm. Yaşadığın şanlı tarix bu gün böyük sevgi və ehtiramla yad edilir, yaşadılır. Bu tarixin bir-birindən zəngin səhifələri qəhrəmanlıqlarla doludur. Bu gün isə özünün yeni dövrünü yaşayırsan, doğma məmləkətim. Sevinirik ki, gözəllik sənin yolyoldaşına çevrilib. Bütün fəsillərdə bu gözəlliyi, füsunkarlığı görmək olar. Diyarımıza qədəm qoyan baharın gözəllikləri də bu yurdun insanlarına özgə bir ovqat bəxş edir.

Bu ovqat xəyallarımı bir neçə il öncəyə göndərir ilk bahar günlərinin birində şəhərimizin bir-birindən gözəl ünvanlarını gəzə-gəzə.

...Dörd ildir ki, baharı həm də ölkəmizin ərazi bütövlüyünün təmin olunduğu fəsil kimi qeyd edirik. 2020-ci ilin ilk payız günlərinin birində – sentyabr ayının 27-də başlanan mücadilə 30 il işğal altında qalmış torpaqlarımızın geri qaytarılması, neçə-neçə igidimizin

*Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram,*
*Qolumdakı zəncirləri qıram gərək, qıram-qıram! –*

deyərək şəhidlik zirvəsinə ucalması, sağlamlığını itirərək doğma ev-eşiyinə qazi kimi qayıtması ilə nəticələndi. Sonra antiterror tədbirləri... Bu yaxınlarda dörd kəndimizin geri alınması... Bu tarixi qələbədə naxçıvanlılar da öz torpaq təəssübkeşliyini, yurda bağlılıqlarını, Vətənə sevgi və məhəbbətlərini göstərdilər. Və bu illərin baharları həm də bizim onların ruhları qarşısında borcumuzu bir daha göz önünə gətirir. Bunları düşünə-düşünə yolumu şəhərimizin ən müqəddəs ünvanına – Şəhidlər xiyabanına salıram. Həmişə dolu olan bu ünvanda yenə də insanlar öz xilaskarlarını yad edirlər:

*Torpağın qoynunda şəhidlər yatır,*
*Şəhidlik! Ulu ad daşıyır onlar.*
*Nə qədər bu torpaq, bu Vətən durur –*
*Beləcə, ömr edib yaşayır onlar.*

...Qəlbimdə onlara dərin minnətdarlıq hissi ilə Əcəmi seyrəngahına üz tuturam. Seyrəngah insanlarla doludur. Baharın gözəlliyini burada duymağın özü bir gözəllikdir, – deyə düşünürəm. Yadıma şair dostum Muxtar Qasımzadənin misraları düşür:

*Təbiət bu yeri gəzib ayrıca*
*Nə qədər gözəllik bağışlayıbdır.*
*Günəş zirvələrdən süzüb ayrıca*
*Dağları yarıdan naxışlayıbdır.*

Bəlkə də, baharın bundan gözəl poetik təsvirinə rast gəlməmişəm. Bu sətirlər bir rəssam tablosunu xatırladır, sanki bəstəkar bəstəsidir, dinlədikcə ruhun təzələnir. Sənin bahar gözəlliyini, elə bil ki, birinci dəfədir, görürəm. Düşünürəm ki, elə sənin gözəlliyinin ülviyyəti də bundadır. Hər seyr edəndə o gözəlliyin yeni qatları üzə çıxır, sirli-soraqlı bir aləmə aparır adamı. Qeyri-ixtiyari olaraq üzünə təbəssüm qonur ki, bu yurd mənim yurdumdur, bu bahar mənim yurdumun baharıdır.

Mənim, sənin, onun olan bu yurd yerində baharın əlamətləri özünü göstərməkdədir. Bu da bir gözəllikdir: ağacların yarpaqları öz rəngini təzə-təzə dəyişməyə başlayıb. Elə o ağacların o yarpaqları yüngülvari əsən mehdən tərpənməkdədir. Başımı qaldırıb səmanınənginliklərini seyr etmək istəyirəm. Çətirləşmiş ağacların arasından batmaqda olan Günəşin solğun şüaları gözümə dəyir.

Oturduğum skamyadan qalxıb seyrəngahın içərisinə doğru addımlayıram. Uşaqların, gənclərin, ahıl insanların təbəssümlü baxışları ilə rastlaşıram. Hiss etmək çətin deyil ki, buradakı istirahətdən zövq alırlar. Bəlkə də, hansı birinsə ürəyindən gözəl şairimiz Həsənəli Eyvazlının sətirləri keçir:

*Ömrümə bir payız qonağı gəlib*
*Saralan yarpaqlar üşüdür məni.*
*Ömrümə bir payız sınağı gəlib*
*Yaratmaq ümidi yaşadır məni.*

Bir neçə il əvvəl burada salınmış şəlalənin yaxınlığında ayaq saxlayıram. Təbiətin ən gözəl mənzərəsini burada yaratmaq insan zəkasının məhsuludur, insan övladının doğma yurd yerinə bağlılığının ifadəsidir, insan amilinə ehtiramın təcəssümüdür. Buradan görünən Qızlar bulağı isə təbiətin doğma Naxçıvana bəxş etdiyi möcüzələrdən biridir.

Bu bahar günlərində Qızlar bulağı yenə də gənclərlə doludur. Neçə-neçə məhəbbətə şahidlik edib Qızlar bulağı. Bu gün yenə də bu "xeyirxah missiya"nı yerinə yetirir. Sevənlərə öz qoynunda yer verir. Sanki bahara yenidən vurulursan.

Qızlar bulağında gəzişən, söhbətləşən, çöhrələrindən məhəbbət yağan gənclərə, bir qədər həsədlə baxırsan... Şair dostum İbrahim Yusifoğlunun misralarını xatırlayıram:

*Tikilir, qurulur qədim Naxçıvan,*
*Hər an gözəlləşir, bu xoş gündə.*
*Çiçək dənizidir qoynunda hər yan,*
*Bütün gözəlliyi sənsən önündə.*

Bir bahar günündə bu füsunkar təbiətin, ülvi gözəlliyin qoynunda aldığım təəssürat ruhumu təzələyir. Bu, doğma Naxçıvanımızın baharıdır, sənin, mənim, hamımızın baharıdır...

✍ **Muxtar MƏMMƏDOV**

## Şəhidin adına verilmiş sinfin açılışı olub

Şahbuz şəhər 2 nömrəli tam orta məktəbdə Vətən müharibəsinin qəhrəmanlarından olan şəhid Emin Sadiqovun adına sinfin açılışı olub. Tədbirdə şəhid valideynləri, qazilər, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Şahbuz Rayon İcra Hakimiyyətinin, rayon Təhsil Şöbəsinin nümayəndələri iştirak ediblər. Öncə şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət Himni səsləndirilib. Çıxış edənlər şəhidlərimizin qəhrəmanlığından danışıb. Vətən fədailərinin igidliyindən bəhs ediblər. Şəhidin anası Gülşad Rüstəmova çıxış edərək Vətən oğullarının xatirəsini yaşatmaq yolunda görülən işlərə görə minnətdarlığını bildirib.

Şəhid anaları çıxış edərək şəhidlərimizin xatirəsinə hörmət və



ehtiram göstərən hər kəsə təşəkkür etdilər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Esmira Həsənova çıxış edərək dövlətimizin daim şəhid ailələrinin yanında olduğunu qeyd edib. Bildirib ki, şəhidlərimiz bu dövlət var olduqca yaşayacaq. Onların igidliyi sayəsində Azərbaycan bütövləşdi və bütün dünya şahidlik etdi bu xalqın birliyinə.

Sonda videoçarxa baxılıb, məktəblilərin ifasında şeirlər dinlənib.

Qeyd edək ki, Sadiqov Emin Rəşadət oğlu 21 iyul 1998-ci ildə Şahbuz rayonunun Şahbuzkənd kəndində anadan olub. 2004-cü ildə Naxçıvan şəhər Cəlil Məmmədquluzadə adına 2 nömrəli tam orta məktəbin birinci sinfinə gedib. 8-ci sinfi bitirdikdən sonra Emin Sadiqov Heydər Əliyev adına Hərbi Liseyə qəbul olub və 3 il burada təhsil alıb. 2015-ci ildə hərb sənətinin dərinliklərinə yiyələnmək üçün Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olub. 2019-cu ildə AAHM-dən məzun olan Emin Qazax rayonunda yerləşən hərbi hissəyə təyinat alıb. İkinci Qarabağ savaşına leytenant Sadiqov Füzuli istiqamətində qoşulub. 26 oktyabr 2020-ci ildə şəhidlik zirvəsinə ucalıb. 30 oktyabr 2020-ci ildə doğulduğu Şahbuzkənd kəndində dəfn olunub.

Vətən Emin kimi qəhrəman oğullarına daim minnətdardır.

✍ **Ramiyyə ƏKBƏROVA**

### Elan

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin "Şərq qapısı" qəzetinin 20 aprel 2024-cü il tarixdə 15 saylı nömrəsində verilmiş elan etibarsız sayılır.

***AMEA Naxçıvan Bölməsi***

***

Şahbuz Rayon Təhsil Şöbəsi təsərrüfat və dəftərxana ləvazimatlarının alınması üçün kotirovka sorğusu keçirilməsində iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Tender və Kotirovka Komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

- *Maraq məktubu*
- *Malsatanın satdığı təsərrüfat və dəftərxana ləvazimatları haqqında məlumat.*

Qeyd olunmuş sənədlər toplusunu 30 may 2024-cü il saat $18^{00}$-a kimi Şahbuz Rayon Təhsil Şöbəsinə təqdim etmək lazımdır.

***Şahbuz Rayon Təhsil Şöbəsi***
***Əlaqə telefonu: (036) 543-02-35***
***050-599-15-95***

***

"Şahbuz Rayon Mehmanxanası" Açıq Səhmdar Cəmiyyəti bildirir ki, 2023-cü ilin illik hesabat yığıncağı olacaq. Cəmiyyət üzvlərindən xahiş olunur ki, iclasda iştirak etsinlər.

### Allah rəhmət eləsin

Şahbuz rayonu Kolanı kənd tam orta məktəbinin kollektivi iş yoldaşları **Vaqif Zülfüqarovun** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə bağsağlığı verirlər.

### *İtmişdir*

Rəsulov Rizvan Zülfəli oğlunun adına olan 0300394042 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

***

Culfa şəhəri, M.Əsgərov küçəsi, ev 11-də yaşamış Mustafayev Qadir Əli oğlunun adına olan fərdi yaşayış evinin 278 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Cəhri qəsəbə sakini Qasımov Əbülfət Ağoş oğlunun adına olan JN-$2062^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonu, Anaqut kənd sakini Yusifova Aynur Məzahir qızının adına olan torpağa mülkiyyət hüququna dair JN-285 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Dəmirçi kəndində yaşamış Qədimov Allahverdi Fərəculla oğlunun adına olan JN-$664^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Baş çavuş Haqverdiyev Salman İsmayıl oğlunun adına olan AD-0050131 seriya nömrəli baş çavuşun hərbi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Abdullayev Amin Qibləli oğlunun adına olan JN-186 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Nehrəm kəndində yaşamış Məmmədov İbadulla Ağa oğlunun adına olan JN-2875 nömrəli, 10300058 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Dizayner: Tacirə Vəliyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 138